www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 iyun 2015-ci il Cümə № 121 (6149) Qiyməti 40 qəpik

**Xəbər**

## Ramazan fətvası verildi: iyunun 18-i orucluğun 1-ci günüdür

yazısı səh.12-də

**Gündəm**

### Rəsmi Bakı avropalı məmurları Azərbaycana qarşı qərəzdə suçladı




XİN: "Bu şəxslərin Avropa Oyunlarına qarşı məkrli cəhdləri beynəlxalq ictimaiyyətin iradəsinə qarşı fəaliyyətdir"

yazısı səh.8-də

*Siyavuş Novruzov:*

### "İnsan yaşlaşanda ağlı qaçmır ki..."

yazısı səh.6-da

*Ekspert:*

### "Rusiya hakimiyyəti Azərbaycan müxalifətinə inanmır"

yazısı səh.9-da

### Nizami Qocayev jurnalistin saxlanılmasından danışdı

yazısı səh.6-da

### Əfv ümidləri indi də Qurtuluş gününə qaldı

yazısı səh.7-də

### Avropa liderlərinə çağırış müxalifəti silkələdi

yazısı səh.11-də

### "A.M.A.Y. Abdulla"nın məhkəməsi təxirə salındı

yazısı səh.7-də

### Oliqarxlardan sonra növbə icra başçılarına çatdı

yazısı səh.12-də

### Rəqsanənin veriliş aparması narazılıq yaratdı

yazısı səh.13-də

### KXCP-nin rayon şöbəsinin sədri həbs olundu

yazısı səh.3-də

### Şeyx telekanalları ittiham etdi

yazısı səh.12-də

### Yanan binalarla bağlı yeni xəbərlər

yazısı səh.15-də

## Yalnız prezidentə bağlı naziri niyə vururlar?

# ELMAR MƏMMƏDYAROV YENİDƏN HƏDƏFDƏ-İKİ ŞOK SƏBƏB...

Avropa Oyunlarının açılışına sayılı günlər qalmış Azərbaycan XİN-də "ciddi qalmaqal" kimlərə və niyə lazımdır? Məmmədyarovu "arzuedilməz" edən onun həm də sərt anti-Qərb siyasəti tərəfdarı olmamasıdır




yazısı səh.5-də

# Putinin ən yaxın hədəfi: Bakı və Ankara...

Rusiya iki qardaş ölkəni Avrasiya Birliyinə qoşmaq üçün səylərini intensivləşdirib; Putinin qəyyum etdiyi şəxs: "5 ilə Azərbaycan və Türkiyə qurumun üzvü olacaq"; Rusiya prezidenti qısa zamanda Türkiyəyə də səfər edə bilər

yazısı səh.8-də



*İlham Rəhimov:*

### "Bunu yalnız xalq referendumla həll eləməlidir"

yazısı səh. 4 və 5-də




### "Səfir qiyamı" məsələsi böyüdü

yazısı səh.3-də



*İsgəndər Həmidov:*

### "Elçibəy qan tökmək istəmədi, nəticə də bu oldu..."

yazısı səh.7-də

# 5 iyun 2015



# İlham Əliyevlə xanımı parkda

**Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Yasamal rayonunda Azərbaycan Milli Konservatoriyasının inzibati-tədris kompleksinin yaxınlığında salınan yeni parkda yaradılan şəraitlə tanış olublar.**

Müasir üslubda, orijinal dizaynda yaradılan bu parkla Bakının gəzməli yerlərinə daha bir ünvan əlavə edilib. Beləliklə, "Bakı-2015" birinci Avropa Oyunları ərəfəsində açılan bu park ölkəmizə gələn qonaqlara paytaxtımızın daha bir istirahət mərkəzinin gözəlliyini nümayiş etdirəcək.

# Çingiz Abdullayev baş məşqçini qovdu

**Azərbaycan Kubokunun finalı çərçivəsində baş tutmuş "Qarabağ" - "Neftçi" matçından dərhal sonra "Neftçi" PFK-nın Müşahidə Şurasının iclası keçirilib. Müşahidə Şurasının sədri Çingiz Abdullayevin rəhbərliyi ilə baş tutmuş toplantıda şura üzvləri - Cəbrayıl Cəbrayılov, Səməd Qurbanov, Mübariz Zeynalov, Bəhram Bağırzadə, klubun icraçı direktoru Elnur Məmmədov, idman direktoru Vəli Qasımov və icraçı direktorun müavini Mübariz Xudiyev iştirak ediblər.**

Toplantıda qəbul edilmiş qərara əsasən "Neftçi" futbol komandasının baş məşqçisi Arif Əsədovla və məşqçilər korpusu ilə yollar ayrılıb.

Əsas komandanın baş məşqçisi vəzifəsi müvəqqəti olaraq Samir Əliyevə həvalə edilib.

Məlumat üçün bildirək ki, Samir Əliyev bu mövsüm "Neftçi" PFK-nın əvəzedici heyəti ilə ölkə çempionatının bürünc medallarını qazanıb.

Peşəkar futbolçu karyerası ərzində 31 dəfə əsas milli komandanın heyətində meydana çıxmış Samir Əliyev 112 oyunda "Neftçi"nin formasını geyinib. Ukrayna və Rusiyada legioner həyatı yaşamış hücumçu "Volın" və "Uralan" klublarında da çıxış edib.

# "Xəzər Lənkəran"ın yeni baş məşqçisi bəlli oldu

**"Xəzər Lənkəran"ın baş məşqçi vəzifəsində dəyişiklik edilib. Qol.az-ın məlumatına görə, klubun idman direktoru Yunis Hüseynov baş məşqçi vəzifəsinə gətirilib.**

O, komandanın sabiq çalışdırıcısı Elbrus Məmmədovu əvəzləyib. E.Məmmədov isə yenidən "Xəzər Lənkəran"ın əvəzedici komandasını çalışdıracaq.

Xatırladaq ki, Yunis Hüseynov 2012-ci ildə də "Xəzər Lənkəran"ın baş məşqçisi olub.

# "Qazprom" İran-Ermənistan qaz kəmərini alır

**İran-Ermənistan "Meğri-Qacaran" təbii qaz kəməri Rusiyanın "Qazprom Armeniya" şirkətinə satılacaq. "Report" Ermənistan KİV-inə istinadən xəbər verir ki, bunu Ermənistanın energetika və təbii ehtiyatlar nazirinin müavini Ara Simonyan bildirib.**

Xəbərə görə, hazırda bu sahənin 40 km-i "Yüksək gərginlikli Elektrik Şəbəkəsi" Qapalı Səhmdar Cəmiyyətinin mülkiyyətidir və "Qazprom Armeniya" qaz kəmərinin həmin hissəsini icarəyə götürüb.

"Bu niyə vaxtında edilməyib? Çünki o vaxt biz bu tikintiyə İran tərəfinin kreditini cəlb etmişdik. İran tərəfi 10 faizlik krediti dövlət müəssisəsinə verə bilərdi. Ona görə də bu anlaşmaya "Yüksək Gərginlikli Elektrik Şəbəkəsi" cəlb edildi. Tikinti başa çatıb, borc ödənib. Bu səbəbdən kiçik bir məntəqəni saxlamağa ehtiyac yoxdur", - nazir müavini vurğulayıb.

Qeyd edək ki, İran-Ermənistan təbii qaz kəməri 2007-ci ildə istismara verilib. İkitərəfli razılaşmaya əsasən, İranın verdiyi bir kubmetr təbii qazın qarşılığında Ermənistan 3kVt/saat elektrik enerjisi verir.

"Elm" tədris mərkəzi
**MAGIC LANGUAGES**
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Bakı-2015"in rəsmisi Şeyxdən nə istəyib?

**"Arzu edirəm ki, müqəddəs Ramazan ayında edilən dualar idmançılarımızın uğuru üçün də olsun".**



"Trend" xəbər verir ki, bunu Bakı-2015 Avropa Oyunları Əməliyyat Komitəsinin (BEGOC) korporativ direktoru Elçin Səfərov bu gün Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Surasının Ramazan ayının başlaması ilə bağlı keçirilən birgə iclasında bildirib.

O, QMİ sədri Allahşükür Paşazadəyə Avropa Oyunlarına və idmançılarımıza verdiyi xeyir-duaya görə təşəkkürünü bildirib.

Xatırladaq ki, Şeyxülislam Hacı Allahşükür Paşazadə həmin birgə iclasda bildirib ki, I Avropa Oyunları, İslam Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin necə sürətlə inkişaf etdiyini göstərir: "Biz həm ibadətimizi eləməliyik, həm də elə etməliyik ki, Avropa dövlətləri bizi tanısınlar".

Şeyxülislam Azərbaycanda keçiriləcək mötəbər yarışların önəminə diqqət çəkməklə bərabər ölkəmiz üçün xeyir-dua da verib: "I Avropa Oyunları zamanı 30-a yaxın dövlət başçısı Azərbaycana gələcək. Bu özü ölkəmizin uğuru deməkdir. Biz QMİ adından xeyir-dua veririk".

Şeyxülislam həmçinin söyləyib ki, Avropa Oyunlarında Azərbaycan yaxşı nəticələr əldə edəcək. Şeyx idmançılarımızın çoxlu medallar qazanacağını ümid etdiyini də vurğulayıb.



# Jurnalistlər üçün tikilən bina nə vaxt hazır olacaq?

**Mətbuat Şurasının (MŞ) sədri Əflatun Amaşov jurnalistlər üçün inşa edilən binanın bu il üçün təhvil verilib-verilməməsi məsələsinə münasibət bildirib.**

MŞ sədri publika.az-a açıqlamasında deyib ki, bu məsələ ilə Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) məşğul olur: "Ancaq bildiyim qədər, jurnalistlər üçün inşa edilən binada işlər hələ tamamlanmayıb. Ola bilər ki, həmin binada aparılan işlərin bu ilin sonuna kimi başa çatdırılması mümkün olmasın. Yəqin ki, bina hazır olandan sonra jurnalistlərə veriləcək".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

# Buraxılış imtahanlarının biabırçı nəticələri açıqlandı

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) iyunun 2-də Bakı şəhərində yerləşən orta ümumtəhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan şagirdlər üçün mərkəzləşdirilmiş qaydada buraxılış imtahanlarının nəticələrinin statistik göstəricilərini açıqlayıb.**

TQDK-nın mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, 9-cu siniflər buraxılış imtahanında iştirakı nəzərdə tutulan 31490 şagirddən 404 nəfəri imtahana gəlməyib, 5 nəfər qaydaları pozduğu üçün nəticələri ləğv olunub. TQDK-nın internet saytında 31081 şagirdin imtahan nəticələri yerləşdirilib.

Qeyd edək ki, ümumi orta təhsil bazasında (9 illik ) keçirilmiş buraxılış imtahanında Ana dili və Riyaziyyat fənlərinin hər biri üzrə ayrılıqda test tapşırıqlarına verdiyi düzgün cavablarının sayı 8-dən az olmayan şagirdlər müvəffəq qiymət alırlar.

Azərbaycan bölməsində buraxılış imtahanında iştirak edən 9-cu sinif şagirdlərinin 55.85.%-i ana dili fənni üzrə, 57.98%-i riyaziyyat fənni üzrə "2" və "3" qiyməti alıb. Həmin bölmədə ana dili fənni üzrə şagirdlərin 44.15%-i, riyaziyyat fənni üzrə isə 42.02 %-i "4" və "5" qiyməti alıblar.

Rus bölməsində isə buraxılış imtahanında iştirak edən 9-cu sinif şagirdlərinin 45.56.%-i ana dili fənni üzrə, 44.16%-i riyaziyyat fənni üzrə "2" və "3" qiyməti alıblar. Həmin bölmədə ana dili fənni üzrə şagirdlərin 54.44%-i, riyaziyyat fənni üzrə isə 55.84 %-i "4" və "5" qiyməti alıblar.

56 nəfər maksimum nəticə göstərərək 60 bal toplayıb

11-ci sinif üzrə buraxılış imtahanda iştirakı nəzərdə tutulan 24445 şagirddən 333 nəfəri imtahana gəlməyib, 18 nəfər qaydaları pozduğu üçün nəticələri ləğv olunub. TQDK-nın internet saytında 24094 şagirdin imtahan nəticələri yerləşdirilib. Ana dili və riyaziyyat fənlərinin hər biri üzrə ayrılıqda test tapşırıqlarına verdiyi düzgün cavablarının sayı 8-dən, xarici dil (xarici dil tədris olunmayan məktəblərin şagirdləri üçün kimya) fənnindən isə 5-dən az olmayan şagirdlər müvəffəq qiymət alırlar.

Azərbaycan bölməsində buraxılış imtahanında iştirak edən 11-ci sinif şagirdlərinin 45.67.%-i ana dili fənni üzrə, 35.39%-i riyaziyyat fənni üzrə "2" və "3" qiyməti, həmin bölmədə ana dili fənni üzrə şagirdlərin 54.32%-i, riyaziyyat fənni üzrə isə 64.62 %-i "4" və "5" qiyməti alıblar.

Rus bölməsində isə buraxılış imtahanında iştirak edən 11-ci sinif şagirdlərinin 36.85.%-i ana dili fənni üzrə, 27.32%-i riyaziyyat fənni üzrə "2" və "3" qiyməti, həmin bölmədə ana dili fənni üzrə şagirdlərin 63.15%-i, riyaziyyat fənni üzrə isə 72.68 %-i "4" və "5" qiyməti alıblar. 165 nəfər maksimum nəticə göstərərək 90 bal toplayıb.

# Hərbi attaşelər Naxçıvana səfər ediblər

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici dövlətlərin Azərbaycanda akkreditə olunan hərbi attaşeləri Naxçıvan şəhərinə səfər ediblər.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən xəbərinə görə, on iki dövləti təmsil edən hərbi attaşelər burada Heydər Əliyev adına Hərbi Liseydə və hərbi hissədə olublar.

Qonaqlar hərbi qulluqçuların döyüş hazırlığından, onlar üçün yaradılmış tədris, xidmət və məişət şəraitinin səviyyəsindən məmnun qalıblar.

Ziyarət proqramına uyğun olaraq hərbi attaşelər və onların ailə üzvləri Naxçıvan şəhərinin mərkəzində ucaldılmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin muzeyini ziyarət ediblər.

Sonra qonaqlar Naxçıvan Biznes Mərkəzini, "Əshabi-Kəhf" ziyarətgahını, Möminə Xatun türbəsini, Naxçıvan qalasını, duz mağarasını, Nuh Peyğəmbərin məzarını ziyarət ediblər.

Hərbi attaşelər səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və Əlahiddə Ümumqoşun Ordusunun Komandanlığına minnətdarlıqlarını bildiriblər.

# Almaniya xarici işlər naziri Rusiyanı G8-ə qayıtmağa çağırıb

**Almaniya xarici işlər naziri Frank-Valter Ştaynmayer Rusiyanı tezliklə G8 birliyinə qayıtmağa çağırıb.**

APA-nın RBC-ya istinadən verdiyi xəbərə görə, Ştaynmayer "Neue Osnabrücker Zeitung"ə müsahibəsində bildirib ki, Avropa qonşu regionlarda olan "xroniki münaqişə"lərin nizama salınmasında Rusiyanın köməyinə ehtiyac duyur.

"Biz G8-in həmişəlik G7-yə çevrilməsində maraqlı ola bilmərik. Avropanın qonşu regionlardakı "xroniki münaqişə"lərin nizamlanmasında Rusiyanın köməyinə ehtiyacı var. Söhbət Suriya, İraq, Liviya və İranla bağlı məsələlərdən gedir", - deyə o bildirib.

Almaniya iqtisadi əməkdaşlıq üzrə nazir Gerd Müller isə bildirib ki, Rusiyanın G8-ə qayıtması prezident Vladimir Putindən asılıdır. "Ukraynanın şərqindəki problemin həllinə dair Minsk razılaşması yerinə yetirilməlidir. O zaman Rusiyanın G8-də yeri olacaq", - deyə o, "Passauer Neue Presse"yə müsahibəsində bildirib.

# Günün içindən



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



Arif Məmmədov

# “Səfir qiyamı” məsələsi böyüdü

## Arif Məmmədovun və XİN-in daha üç əməkdaşının işdən azad edildiyi xəbəri yayıldı

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının rəhbəri Arif Məmmədov vəzifəsindən azad edilib. Bu barədə virtualaz.org saytı məlumat yayıb. Məlumatda qeyd edilir ki, Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) İslam Konfransı Təşkilatına səfirin artıq geri çağırılması barədə məktub göndərib. Saytın yazdığına görə, səfirin antihakimiyyət statuslarını dəstəkləyən XİN-in üç əməkdaşı da işindən azad edilib. Xatırladaq ki, Arif Məmmədov facebook statusunda 19 mayda Binəqədidə baş vermiş yanğın hadisəsinə görə məmurları pisləyən statusunda belə yazıb:**

“Bu faciə hər bir azərbaycanlının kədəri və faciəsidir. Allah xalqımıza səbri qalıbsa, səbir versin. Heç bir xalq bu qədər haqsızlığa və biabırçılığa dözməz. Xalqın zülmündən milyonlar əldə edən məmurlar çox səbirli xalqımızın qəzəbindən qorxmurlarsa, Allahın qəzəbindən qorxsunlar”.

Qeyd edək ki, eyni vaxtda Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli də prezident fərmanı ilə geri çağırılıb. Bir neçə diplomat haqqında da ölçü götürüləcəyi deyilir. Hətta iddialar var ki, oliqarxlarla bağlı baş verən proseslərin ardınca “diplomatqeyt” prosesi gözlənilir və baş verənlər ilkin işartılardır. Diplomatik korpusda “qiyamçılar”ın baş qaldırması iddiaları da səslənir.

**Politoloq Ərəstun Oruclu “Yeni Müsavat”a şərhində heç bir iddianı istisna etməyərək bunları bildirdi:** “Ortada artıq bir fakt var ki, bu, kiminsə profilinin ələ keçirilməsi deyil, real faktlardır”. **Ə.Oruclu baş verənlərin səbəbləri barədə müəyyən mülahizələrə malikdir:** “Ya hakimiyyətin daxilində çox ciddi fikir ayrılığı, çat yaranıb ki, bu kimi məsələlər gündəmə gəlir. Ya da ki, bu məsələdə hansısa xarici faktorun rolu var. Məsələnin Avropa Oyunları ərəfəsində gündəmə gəlməsini də təsadüf saymıram. Mən bir variantı da istisna etmirəm ki, bu adamları irəli verənlər ola bilsin hakimiyyət daxilində Elmar Məmmədyarovun sıradan çıxarılmasında maraqlı olan qüvvələrdir. Məmmədyarov və bir neçə nazirlər var ki, bunlar nisbətən Qərbə, Avropaya loyal sayılan şəxslərdir. Mən istisna etmirəm ki, hakimiyyətin rusiyameylli hissəsi artıq bu vasitə ilə həmin nazirləri hədəfə alır. Hələlik Elmar Məmmədyarovu, XİN başçısını...Çünki indi çox ciddi, son dərəcə önəmli mərhələdir, Azərbaycan seçim qarşısındadır. Görünür, Elmar Məmmədyarovu sıradan çıxartmağın ən optimal yolunu tapıblar. Belə rəy yaratmaq istəyirlər ki, onun təyin etdiyi diplomatlar, göndərdiyi səfirlər etibarsızdırlar. Bu faktları ölkə başçısına təqdim etməklə faktiki olaraq Məmmədyarovun müqəddəratını həll etmək istəyirlər. Hakimiyyətdə hansısa xarici qüvvənin təsirinin - yüksək ehtimalla Rusiyanın - olması mümkündür”.

**İslam Konfransı Təşkilatının Avropa İttifaqı yanındakı nümayəndə heyətinin *(Azərbaycan tərəfdən)* hazırkı rəhbəri, bundan əvvəl isə Azərbaycanı 5 il Avropa Şurasında, 7 il Avropa İttifaqında təmsil etmiş Arif Məmmədov “diplomatik xəyanət”lə bağlı ünvanına səslənən ittihamlara cavab verib. Səfirin cavabı onun facebook səhifəsində yayılıb. Arif Məmmədov yazır:** “Bunu hazırlayanların kimliyini mən çox yaxşı bilirəm”. Ardınca bildirib: “Mən Azərbaycanın səfiri kimi, Avropa Şurasının nümayəndə heyəti ilə birlikdə istintaq təcridxanasında Eynulla Fətullayevlə görüşmüşdüm. Onun gözləri çox kədərli idi və sırf insani baxımdan onun halına acıdım. Mən ondan incimirəm. Qoy onun əməlinə Allah özü qiymət versin. O, sadəcə, çirkin sifarişin icraçısıdır. Bunu hazırlayanların kimliyini mən çox yaxşı bilirəm. Ümid edirəm ki, nə vaxtsa öz səhvlərini başa düşəcəklər və onları da bağışlaya biləcəm. Mənəvi dəstəyə görə hamıya çox təşəkkür edirəm.



**Ərəstun Oruclu:** “İstisna etmirəm ki, bu adamları irəli verənlər hakimiyyət daxilində Elmar Məmmədyarovun sıradan çıxarılmasında maraqlı olan qüvvələrdir”

Bütün yazılanlardan sonra özünüz nəticə çıxarın ki, kim xəyanətkardır, kim vətənpərvərdir".

“Azərbaycan Xarici İşlər Nazirliyinin əməkdaşı və İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqındakı nümayəndəsi Arif Məmmədov sosial şəbəkədə Azərbaycan dövlətini və xalqını aşağılayan fikirlərinə görə cəzalandırılmalı, hətta həbs olunmalıdır”. Bu fikirləri azvison.az-a **Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** bildirib. Partiya sədri hesab edir ki, diplomat özünün peşə fəaliyyəti ilə məşğul olmalıdır: “Çünki hər bir diplomatın üzərinə götürdüyü öhdəliklər var və bu çərçivədə öz işini qurmalıdır. Təəssüf edirəm ki, həmin adam diplomatik qaydalarla bağlı normaları pozub və diplomata nüfuz gətirməyən addımlar atıb. Onun fəaliyyəti ciddi şəkildə araşdırılmalı və hərəkətinə görə cəzasız qalmamalıdır”.

**Diplomatların yanan bina ilə bağlı sosial şəbəkələrdə yazdıqları ilə bağlı mövqeyini açıqlayan deputat Fazil Mustafa deyib ki, diplomatların Azərbaycanda baş verən hər hansı hadisəyə qarışmasını düzgün hesab etmir:** “Elə məsələlər var ki, onlara ancaq ictimai təşkilatlar, vətəndaş cəmiyyətinin nümayəndələri, sadə vətəndaşlar və siyasilər mövqe bildirə bilər. Baş verən hadisəni ya təqdir, ya da tənqid edə bilərlər. Diplomatlar siyasətçi olmadıqlarından onların bu cür məsələlərə mövqe sərgiləməsi bir qədər peşəkar etikadan kənardır və ona uyğun olmayan addımdır. İstəməzdim belə olsun.” **F.Mustafa deyib ki, əgər diplomat proseslərə qarışırsa, o zaman diplomatik fəaliyyətini dayandırıb normal siyasi fəaliyyətlə məşğul olmalıdır:** “Azərbaycan demokratik ölkədir və hər hansı diplomatın bir diplomat kimi fəaliyyətinə son verib siyasətçi kimi fəaliyyətə başlamasına normal yanaşmaq lazımdır”.

❑ **Cavid TURAN**

# KXCP-nin rayon şöbəsinin sədri həbs olundu

**Xəzər Teyyublu:** “O, icra başçısının qəzəbinə tuş gəlib”



**İyunun 4-də KXCP-nin Samux rayon şöbəsinin sədri Tahir Abdullayev həbs olunub. O, rayonun icra başçısının qəbuluna düşdükdən sonra həbs edilib. Bu barədə musavat.com-a KXCP-nin sədr müavini Xəzər Teyyublu məlumat verib.**

O bildirib ki, Tahir Abdullayev icra başçısı Alı Abdullayevin qəbuluna düşdükdən sonra onun göstərişi ilə tutulub: “Samuxda əhalinin sosial problemləri hədsizdir. Camaat əkin yerlərini suvara bilmir. Su tapılmır, müxtəlif yollarla möhtəkirlər əhaliyə su satır. Dövlət tərəfindən bu işlər yaritmaz vəziyyətdə edilir, bu səbəbdən insanlar əkin yerlərini sulaya bilmirlər. Problemlər, sosial-iqtisadi vəziyyət acınacaqlı olan Samuxda bizim şöbənin sədri camaata dəstək olmağa çalışıb. Tahir bəy istəyib ki, məsələni icra başçısının diqqətinə çatdırsın. O, icra başçısının qəbuluna yazılıb və burada problemləri qaldırıb. Bu zaman mübahisə yaranıb. İcra başçısı məsələlərdən qəzəblənərək polis idarəsinə göstəriş verib və Tahir bəyi həbs ediblər. O, rayon əhalisinin sosial problemlərini qabağa durub icra hakimiyyəti başçısına çatdırdığı üçün bu vəziyyət yaranıb. O, icra başçısının qəzəbinə tuş gəlib”.

❑ **RÖYA**

# Hakimiyyət Rəsulzadənin xidmətini niyə danır?

## Fəzail Ağamalı: “Rəsulzadənin soyadı müxalifət tərəfindən iqtidara qarşı təzyiqin bir növü kimi seçilmişdir”



**Görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin şəxsiyyətinə, onun fəaliyyətinə qiymət verilməməsi barədə fikirlər zaman-zaman əsas müzakirə mövzularından biri olub.**

Müxalifət liderlərinin Novxanıda Rəsulzadənin abidəsi önündəki çıxışlarında da toxunduqları əsas məsələ bu oldu. MSDM rəhbəri İsa Qəmbərin bu fikirləri daha çox diqqəti cəlb etdi: “Bu günü qəbul etməyən təkcə Azərbaycan hakimiyyətidir”.

**İqtidaryönlü deputat Fəzail Ağamalı** səslənən fikirləri doğru saymır. O hesab edir ki, cümhuriyyət xadimləri barəsində hər zaman yüksək fikirlər səsləndirilib: “Rəsulzadə və Cümhuriyyət qurucuları haqqında həm ulu öndərimiz Heydər Əliyev, həm də cənab prezident tərəfindən yüksək fikirlər səsləndirilib. Onların xidmətləri xüsusi olaraq qeyd olunub. Tariximizdə belə bir respublikanın qurulmasında xidmətləri olan həmin tarixi şəxsiyyətləre daim layiqli qiymət verilib. Çox təəssüf edirəm ki, Rəsulzadə vaxtı bitmiş bəzi müxalifət partiyalarının liderləri və funksionerlərinin müzakirə mövzusuna çevrilib. Çox qəribədir ki, Cümhuriyyətimizin qurulmasında, eləcə də Milli Şuranın yaradılmasında böyük xidmətləri olan şəxsiyyətlərdən Rəsulzadənin adı həmişə öndə çəkilir. Onun ideoloq kimi əvəzsiz xidmətləri var. Bu danılmazdır. Amma onunla bərabər digər şəxsiyyətlərimizin adlarının çəkilməməsi təəssüf doğurur. Rəsulzadənin soyadı müxalifət tərəfindən iqtidara qarşı təzyiqin bir növü kimi seçilmişdir. Bu, qəbul edilən hal deyil. Rəsulzadə və silahdaşlarının adını hər bir Azərbaycan vətəndaşı kimi, bizlər də saygı və hörmətlə anırıq. Bu bizim borcumuzdur. Onlar şərəfli tariximizin çox görkəmli nümayəndələridir. Ulu öndərimiz Heydər Əliyev, cənab prezidentimiz İlham Əliyev kimi, bizlər də Rəsulzadəyə daim böyük hörmətlə yanaşmışıq, bundan sonra da yanaşacağıq”.

**Fəzail Ağamalı Respublika Günündə telekanalların künclərində Rəsulzadənin yox, Heydər Əliyevin şəkillərinin vurulmasına da toxundu:** “Respublika Günü Azərbaycan Respublikasının yarandığı gün kimi qeyd olunur. Çünki indiki müasir dövlətimiz 1918-ci il 28 mayda yaradılmış respublikanın varisi elan olunub. Eyni zamanda dövlətçiliyimizin ayrı-ayrı qurumlarının yaranması da həmin tarixdən götürülür. Bunu hamımız yaxşı bilirik. Atributlarımız da Cümhuriyyət dövründə yaradılıb. Bütün dünya dövlətləri ölkəmizin müstəqilliyi günü kimi, 28 Mayı tanıyırlar. Bununla bağlı təbriklərini də göndərirlər. Bu gün də ulu öndərimiz Heydər Əliyevin zamanından başlayan və hazırda davam edən tədbirlər keçirilir, mükafatlar verilir. Bütün respublikada geniş miqyasda qeyd olunur. Heydər Əliyevin şəklinin göstərilməsi məsələsinə gəlincə, deyim ki, bütün bayramlarda ulu öndərimizin şəkli göstərilməlidir. Buna Heydər Əliyevin tamamilə mənəvi haqqı çatır. 24 ilə yaxındır ki, Azərbaycan müstəqillik yollarında öz addımlarını atır. İndiki azad, demokratik, regionun lider dövləti olan Azərbaycanın banisi Heydər Əliyevdir. Digər bayramlarda olduğu kimi, Respublika Günündə də Heydər Əliyevin şəkli olmalıdır. Bunun heç bir alternativi də yoxdur. Mübahisə etməyə belə dəyməz. Müzakirə mövzusunun olması da doğru deyil”.

❑ **Cavanşir ABBASLI**

## Yalnız prezidentə bağlı naziri niyə vururlar?




# Elmar Məmmədyarov yenidən hədəfdə-iki şok səbəb...

### Avropa Oyunlarının açılışına sayılı günlər qalmış Azərbaycan XİN-də "ciddi qalmaqal" kimlərə və niyə lazımdır? Məmmədyarovu "arzuedilməz" edən onun həm də sərt anti-Qərb siyasəti tərəfdarı olmamasıdır...

**I Avropa Oyunlarının açılışına sayılı günlər qalmış Azərbaycan XİN-də ciddi qalmaqal yaranıb. İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının rəhbəri vəzifəsində çalışan Arif Məmmədovun yanan bina ilə bağlı facebook statusunda məmurları tənqid etməsi gündəmin əsas mövzusuna çevrilib. A.Məmmədov statusu hadisə baş verən günün səhəri-mayın 20-də yazıb, amma nədənsə, o status indi gündəmə gətirilib ki, bu da maraq doğurur.**

Azərbaycan XİN-in yüksək rütbəli əməkdaşı statusuna "heç bir xalq bu qədər zülmə və haqsızlığa dözməz" sözlərini də əlavə edib. Bu xəbər yayıldıqdan sonra prezident İlham Əliyevin sərəncamı ilə Eynulla Mədətli Azərbaycanın Ukraynadakı səfiri və GUAM yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılıb. Səfirin geri çağırılmasının səbəbləri haqqında heç nə deyilməsə də, bu statusu "layk" edənlər arasında geri çağırılmış səfirin oğlu, Azərbaycanın Brüsseldəki diplomatik missiyasının əməkdaşı Anar Mədətlinin olması müəmmaları artırıb. Bundan sonra bəzi elektron media "XİN-dəki gizli antiəliyevçilər" arasında Belçikadakı səfirliyin daha iki əməkdaşı-Fərəh Gözəlova və Ramiz Vəliyevin yer aldığı, o cümlədən XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin barəsində də xidməti təhqiqat başladığı xəbərini yayıb.

Saytlardan biri "müxalifətin yeni lideri" kimi təqdim edilən Arif Məmmədovun daha bir statusunu yayıb: "Avropa Oyunlarının məşəldarları siyahısına xalq arasında sevilən parlaq şəxslərin, məsələn, Siyavuş Novruzovun *(idmançı və millət vəkili), Əhəd Abıyevin (intellektual və millət vəkili)*, gül kimi Hafiz Hacıyevin *(nəhəng partiyanın rəhbəri)* adları niyə əlavə olunmasın? Ölkənin parlaq "dostları"nı, məsələn, Jirinovski və ya Gennadi Züqanovu da bu siyahıya əlavə etmək olar". Məsələyə reaksiya verən S.Novruzov diplomatı erməni adlandırıb, başqa bir deputat Qüdrət Həsənquliyev onun psixoloji problemlərinə şahidlik etdiyini söyləyib: "Bu hadisələrdə xaricin barmağını mütləq görmək lazımdır. Gec-tez bu sübuta yetiriləcək" deyə, politoloq Qabil Hüseynli bildirib.

**A.Məmmədov isə ittihamlara belə cavab verib:** "Ölkənin Xarici İşlər Nazirliyini dövlətə xəyanətdə ittiham etmək yalnız xəstə təxəyyülü olan insanın beyninə gələ bilərdi. Bəs bu paskvilin Dağlıq Qarabağ üzrə danışıqlar prosesinə, ölkənin imicinə və digər məsələlərə təsirinin nəticələri barədə düşünübmü? "Dostlar"ın məyus olacağını bilsəm də, deməliyəm ki, mən təmiz azərbaycanlıyam və qan qarışıqlığım yoxdur".

"15 illik fəaliyyətim dövründə həmişə dövlətimizə, prezidentimizə və xalqımıza sadiq olmuşam və əməllərimlə bunu sübut etməyə çalışmışam. Hər birimiz ölkə rəhbəri ətrafında sıx birləşməliyik" deyə, Hikmət Hacıyev də bəyan edib.

Qeyd edək ki, Arif Məmmədov kifayət qədər imkanlı şəxs sayılır, onun Brüsseldə şəxsi mənzili var, ailəsi və yeganə övladı da Azərbaycanda deyil. Bu məsələlərdən sonra onun Azərbaycana dönməyəcəyi də əsas iddialar arasındadır.

***

Bu qalmaqalın Azərbaycanın mötəbər bir yarışa hazırlaşdığı və xüsusilə iqtidarın siyasətinə qarşı son günlər daha da güclənmiş kampaniya ilə bir vaxtda təsadüf etməsi haqlı suallar yaradır. Əlbəttə, diplomat nə qədər vətənpərvər olsa da, hər sözü harada və necə danışmağı da bilməlidir. Azərbaycanın diplomatik korpusu peşəkarlığı ilə öyünə bilməz. Bir çox hallarda Azərbaycanın xarici siyasəti keçmiş məmura, polis generalına, MTN sefinə, hətta yazıçı-şairə də həvalə olunur. Azərbaycanda son illər peşəkar diplomat yetişdirmək üçün XİN nəzdində Diplomatik Akademiya yaradılıb ki, bu təhsil müəssisəsində peşəkar diplomatların yetişməsi üçün illər lazımdır.

***

Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun yerində olmaması barədə rəylər də yeni deyil. Bu barədə rəyi xüsusən hakimiyyətdaxili prosesləri dərindən bilən deputat Qüdrət Həsənquliyev tez-tez gündəmə gətirir. Bu qalmaqaldan sonra da Q.Həsənquliyev "Elmar Məmmədyarov yerində olmayan adamdır və nazirliyin işini qura, əməkdaşlarına nəzarət edə bilmir. Təəssüflər olsun ki, çoxları mənim bu fikirlərimi qəbul eləmək istəmir" deyə, münasibət bildirib. Deputat deyib ki, Xarici İşlər Nazirliyi Milli Məclis kimi bir orqanı saymır, deputatların səfərləri zamanı səfirlər onlara diqqət belə ayırmır.

Hakimiyyət düşərgəsinə yaxın mənbələrdən əldə etdiyimiz məlumata görə, bu skandal Prezident Administrasiyasında ciddi müzakirə mövzusuna çevrilib. Xəbərlərə görə, Elmar Məmmədyarovdan ən çox narazılar da məhz Prezident Administrasiyasında cəmləşiblər ki, bunun iki mühüm səbəb var. Əsas səbəb odur ki, E.Məmmədyarov əvvəldən heç bir qruplaşmaya daxil olmayıb, hətta hakimiyyətdəki şərti olaraq "Bakı qrupu" adlandırılanlar belə nazir üçün cəlbedici görünməyib. O, hakimiyyətdə barmaqla sayılacaq nazirlərdəndir ki, birbaşa bağlılığı prezident İlham Əliyevədir. Məmmədyarov yalnız prezident qarşısında hesabat verdiyindən onun bu müstəqilliyi hakimiyyət daxilində isti qarşılanmır. Halbuki o bəzi məsələlərdə, xüsusən səfir təyinatları üçün seçimləri PA ilə razılaşdırmalıdır ki, bunu da çox vaxt etmir.

E.Məmmədyarovu "arzuedilməz" edən ikinci mühüm səbəb isə onun sərt anti-Qərb siyasəti tərəfdarı olmamasıdır. Onun başçılıq etdiyi idarə bir çox hallarda xaricdən gələn hakimiyyətə yönəlik ittihamlara sərt cavab üslubundan istifadə etmir. Yalnız son aylar görünür ki, yenə də məhz prezidentin göstərişi ilə XİN xarici faktorlarla bağlı bəyanatlarda sərtliyi artırıb.

Prezidentə bağlılığı səbəbindən Məmmədyarovu rəqibləri açıq vurmaqdan həmişə çəkinib və bu, son qalmaqalda da təsdiqləndi. Amma XİN-də "xəyanət çetesi" mövzusunu gündəmə gətirməklə əsas məqsəd də E.Məmmədyarovu hədəfə çıxarmaqdır. Hakimiyyət üçün indi o qədər həssas məqamdır ki, hər hansı bir ehtiyatsız söz belə kimlərinsə karyerasına son qoya bilər.

Məlumata görə, Avropa Oyunlarından sonra gözlənilən kadr dəyişikliyi XİN rəhbərinə də toxuna bilər. Belə ki, prezident ABŞ və Avropa istiqamətində daha çevik xarici siyasət görmək istəyir. Bildirilir ki, hazırda xarici işlər naziri postuna bir neçə namizəd nəzərdən keçirilir. Onların sırasında uzun müddətdir nazir olmaq istəyən Novruz Məmmədovun da adı çəkilir. Namizədlər sırasında Səməd Seyidov da var, ABŞ-dakı səfir Elin Süleymanov da...

**Məmmədyarov isə xarici işlər naziri postundan azad edilərək başqa diplomatik vəzifəyə təyin edilə bilər ki, iddialara görə, özü də bunu çox arzu edir...**

❑ "Yeni Müsavat"



## "Bunu yalnız xalq, referendumla həll eləməlidir..." - İlham Rəhimov

*(əvvəli səh 4-də)*

***- Dağlıq Qarabağ konflikti ilə bağlı da sual vermək istərdik.***

- Amma bu əsas mövzuya - ölüm hökmünə aid deyil.

***- Biz Sizi tez-tez görmürük, Qarabağ isə hamımız üçün ağrılı mövzudur...***

- Buyurun.

***- Son vaxtlar KİV-lərdə Dağlıq Qarabağ münaqişəsinin mərhələli şəkildə həlli təkliflərindən danışılır: yəni öncə 7 rayon azad edilir, sonra isə Dağlıq Qarabağ məsələsinin özünün həllinə başlanılır. Hətta ATƏT-in Minsk Qrupunun həmsədrləri bu xüsusda çox ehtiyatlı da olsa, nəsə deyirlər. Siz işin içindəsinizmi?***

- Mən görürəm ki, Siz Qarabağ məsələsi ətrafında situasiyanı diqqətlə izləyirsiniz. Bu, sevindiricidir. Sualın mahiyyətinə gəlincə, mənim baxışım belədir: həqiqətən də görünür ki, kimsə bu variantı bizə israrla sırımaq istəyir. Kim təklif edir-eləsin, mən hesab edirəm ki, bu, bizim üçün bir tələdir. Deyəsən, amerikalı həmsədr bu xüsusda nəsə demişdi. Ancaq təkrar edirəm, əhəmiyyətli deyil belə təklif haradan gəlir.




Birincisi, Dağlıq Qarabağa həmsərhəd rayonlar danışıqların predmeti ola bilməz. İkincisi, bu variant bizi aşağıdakı böyük problemlərlə üzləşdirəcək: işğalçılar həmin ərazilərdən çıxıb gedəndən sonra "sülhməramlı qüvvələr" adlanan qüvvələrə müəyyən ehtiyac yaranacaq. Əks halda, bizimlə Dağlıq Qarabağdakı ermənilər arasında müharibə yenidən başlayacaq, ən azından - müntəzəm qarşıdurmalar qaçılmaz olacaq.

Sual da budur ki, kim sülhməramlı qüvvə qismində olacaq və onlar orada nə qədər qalacaq? Deyirlər, o vaxtadək ki, Dağlıq Qarabağ məsələsi yoluna qoyulacaq. Yenə sual: bəs nə zaman yoluna qoyulacaq? Cavab: zamanı çatanda referendum yolu ilə.

Bu, çox təhlükəli oyundur. Əgər birinci mərhələ ilə bağlı anlaşma olacaqsa da, - işğalçıların çıxıb getməsi və ərazilərin qaytarılmasını deyirəm, - bizim üçün mühüm olan ikinci məsələyə dair anlaşmanı gözləməyə dəyməz, ona görə ki, bütün beynəlxalq təşkilatlar daim bəyan edəcəklər ki, məsələ artıq bitib. Heç kim də ciddi şəkildə problemə qayıdası olmayacaq. Elə situasiya da bizim xeyrimizə dəyişməyəcək. 10-15 ildən sonra - hamı sakitləşəndən sonra isə Dağlıq Qarabağ erməniləri Ermənistana birləşmək haqda referendum keçirəcəklər.

Ona görə də hesab edirəm ki, Qarabağa dair ən doğru və prinsipial mövqe ölkə prezidenti İlham Əliyev tərəfindən bir daha ortaya qoyulub ki, Dağlıq Qarabağ heç vaxt müstəqil, suveren dövlət olmayacaq və münaqişə yalnızca Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlana bilər.

***- Bir sualımız da Bakı Avropa Oyunları barədədir. Bu tədbirə münasibətiniz...***

- Açığı, sual yumşaq desəm, doğru deyil, çünki elə bir azərbaycanlı təsəvvür eləmirəm ki, bu hadisəyə görə qürur duymasın və bu tədbiri sevinclə qarşılamasın.

***- Artıq qarşıdakı parlament seçkilərindən danışmağa başlayıblar. Seçkilərə qatılacaqsınızmı?***

- Bəs siz istəyərdinizmi ki, mən parlamentdə olum?

***- Əlbəttə ki. Siz peşəkar hüquqşünas kimi orada lazımlı şəxs olardınız.***

- Komplimentə görə minnətdaram. Ancaq bu barədə ciddi düşünməmişəm. Bunu səmimi və vicdanla deyirəm.

❑ Aygün MURADXANLI
❑ Emil MUSTAFAYEV

YENİ MÜSAVAT
N 121 (6149) 5 iyun 2015



# Nizami Qocayev jurnalistin saxlanılmasından danışdı

## Polis rəisi: "Onunla sadəcə izahedici söhbət aparmışıq"



Elçin İsmayıllı

**İyunun 2-də "Cümhuriyyət" qəzetinin redaktor müavini və "Azərbaycan saatı" televiziya proqramının müxbiri Elçin İsmayıllı İsmayıllı Rayon Təhsil Şöbəsinin qarşısında polis tərəfindən saxlanılıb. Müxbirin qardaşı Elşən İsmayıllı "Amerikanın səsi"nə bildirib ki, qardaşını guya içkili vəziyyətdə ictimai yerdə kimlərisə söydüyünə görə polis saxlayıb. "Elçin dünən axşam saat 20.30-da mənə polis tərəfindən saxlanması barədə mesaj yazıb. Ondan bir neçə dəqiqə əvvəl isə biz telefonla danışmışdıq, o içkili deyildi. Hazırda məhkəmənin qarşısında gözləyirik" deyə, o qeyd edib.**

Öz növbəsində, İsmayıllı Rayon Polis Şöbəsindən bildiriblər ki, Elçin İsmayıllı İnzibati Xətalar Məcəlləsinin 310-cu maddəsi (polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama) ilə günahlandırılır. Müxbirin saxlanması rayon polis şöbəsinin müavininin sərxoş halda avtomobil qəzası törətməsi ilə bağlı yazısından bir neçə gün sonraya təsadüf edir.

**İsmayıllı Rayon Polis Şöbəsinin rəisi Nizami Qocayev məsələ ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb. Polis rəisi E.İsmayıllının artıq sərbəst buraxıldığını deyib:** "Elçin İsmayıllı ilə tanışam. İçkiyə meyllidir. Həmin gün də içkili olub. Polislər ona yaxınlaşıb. Ünvansız söyüşlər söyüb. Buna görə də şöbəyə gətiriblər. Növbətçi hissədə vurub qapını sındırıb. Məhkəmədə İnzibati Xətalar Məcəlləsinin 296-cı maddəsi ilə xəbərdarlıq olunaraq buraxılıb. İzahatında da etiraf edib ki, səhv etmişəm, vurduğum ziyanı da ödəməyə hazıram. İndi də baxırıq ki, gedib qəzetlərə tam əksini deyib. İndi gərək onun yazdığı izahatı verək mətbuata ki, çap etsinlər. Burada dediklərindən tamamilə fərqli yazıb. Deyib ki, qapını sındıra bilmərəm. Şəklini də çəkmişik, özü də etiraf edib".

**N.Qocayev E.İsmayıllının saxlanılmazdan əvvəl polisdə olduğunu da söylədi:** "Özü də tez-tez polisə gəlir, biz də dəvət edib söhbət etmişik. Demişik ki, müxbirsən, öz peşənlə məşğul ol. Camaatla işin olmasın. Hətta bir neçə dəfə rəsmi müraciət etmək istəyənlər də olub. Onunla sadəcə izahedici söhbət aparmışıq".

**E.İsmayıllı tənqidçi media mənsubudur və onu dəvət edib söhbət aparmaq peşə fəaliyyətinə mane olmaq deyil ki?**

**Polis rəisi deyir ki, belə deyil:** "Xeyr, bizim onu dəvət edib söhbət aparmağımız fəaliyyəti ilə bağlı deyil. Sırf törətdiyi inzibati xəta ilə bağlı saxlanılıb. Burada onun fəaliyyəti ilə bağlı heç bir məsələ yoxdur. İllərdir ki, o yazır, ona nə təzyiq, nə də başqa hərəkətlər olur. Qoy yazsın. İstənilən nöqtəyə gedib məlumat toplayır, biz bu məsələyə qarışmırıq. Fəaliyyəti ilə bağlı heç nə yoxdur".

**N.Qocayev deyir ki, E.İsmayıllının yazıları ilə tanışdır:** "Mətbuatı izləyirik, onun yazılarına da rast gələndə oxuyuruq. Mütəmadi izləmirəm onu ki, nə yazdı, nə yazmadı. Hamı kimi biz də qəzetlərlə tanış oluruq. Onun mənimlə münasibəti də normaldır. Sadəcə, bir qədər böhtana meyllidir".

❑ E.MƏMMƏDƏLİYEV

# "İnsan yaşlaşanda ağlı qaçmır ki..."

## Siyavuş Novruzov: "Xüsusi rentgen aparatı yoxdur ki, bunların hamısını yoxlayasan ki, kökündə nələr var"

**Avropa Oyunlarına ev sahibliyi etməsi səbəbindən Azərbaycanda bir sıra digər məsələlər tamamilə arxa plana keçsə də, son vaxtlar istisnalar müşahidə olunmaqdadır. Xüsusilə də parlament seçkiləri ilə bağlı hakim partiyada hazırlıqların önə çəkilməsi və qəfildən ciddi işlərə start verilməsi, 1 noyabr seçkiləri ətrafında informasiyaların davamlı şəkildə dövriyyəyə buraxılması diqqət çəkir.**

*YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzovla digər mövzuları, xüsusilə də diplomatik korpusdakı qəribə prosesləri də əhatə edən söhbətimizə seçki məsələsindən başladıq.*

***- Siyavuş bəy, son zamanlar müşahidə olunan budur ki, hakim partiya ciddi şəkildə seçki hazırlıqlarına start verib. Müşahidəmizdə yanılmırıq ki? Qəfildən nə baş verdi ki, seçki hazırlıqları önə çıxarıldı?***

- Ciddi şəkildə deyəndə ki... Biz həmişə seçkiyə ciddi yanaşmışıq. Seçkiyə hazırlığı biz həmişə bir il öncədən başlayırıq və mərhələli şəkildə də müəyyən prosesləri həyata keçirdirik.

***- Seçki ilə bağlı bir sıra sensasion məlumatlar yayılmaqdadır. Həmçinin rektorlar, biznesmenlər və qeyri-fəal deputatların mandatsız qalacağı barədə də xəbərlər var...***

- Bunlar hamısı şayiədir. Kimlərsə şayiə yayır, kimisə bu yolla şantaj edir. Məsələn, biri deyir gənclər gəlir, başqası deyir qocalar gedir... Yaxud digər tərəfdən deyirlər, vəzifəli şəxslərin övladları gəlir, başqa tərəfdən deyirlər, yox, onlar olmayacaq. Bu, seçkidir, təyinat deyil. Seçkinin də prinsipi ondan ibarətdir ki, seçici kimə səs verəcəksə, o da seçicini Milli Məclisdə təmsil edəcək.

***- Amma hər halda, hakimiyyət partiyasının mövqeyi də çox şeyi həll edir...***

- Təbii. Biz düşünürük ki, bizi kimlər təmsil etməlidir. O təmsilçiliyə uyğun olaraq da öz vəzifəmizi yerinə yetirir, işimizi görürük.

***- Müsavat Partiyası bəyan edib ki, artıq 70-dən artıq dairədə namizədlər müəyyənləşdirilib...***

- *(Sualı yarımçıq kəsir)* Müsavatda 70 adam qalıb ki, 70 nəfər də namizəd versin?

***- 103 yaşlı partiya üçün 70 namizəd tapmaq heç də çətin olmaz, bəy.***

- *(Gülür)* Çox çətindir. Elə siz də bu işin içində olan insansınız. Müsavat Partiyasında təyin olunan istər sədr müavinləri, istər Divan üzvlərinin böyük əksəriyyəti əvvəl heç partiya üzvü olmayıb. Ola bilər bir saat əvvəl qəbul ediblər, sonra təyin ediblər. Yaxud QHT-lərin, başqa-başqa təşkilatların üzvü olan insanlardır. Təbii ki, hər bir siyasi partiyanın qanunvericiliklə bitərəfi, başqa partiya üzvü olanı razılığı olduğu təqdirdə öz siyahısı ilə namizədliyini irəli sürsün. Amma tək tərkibdə baxanda Müsavatın yaradıcıları, Müsavatı bərpa edən şəxslərin böyük əksəriyyəti bu gün Müsavatda deyil. Əgər 70 nəfər tapıblarsa, bu, böyük nailiyyətdir.

***- Siyavuş bəy, seçkilərdə YAP bütün dairələrdə təmsil olunmaq niyyətindədir, yoxsa istisnalar olacaq?***

- Biz 125 dairənin 125-də də namizəd irəli sürməyi planlaşdırırıq. Amma keçən seçkilərdən bizim bir praktikamız var ki, müttəfiq partiyadan hansısa namizəd irəli sürürsə, həmin dairədən namizəd verməməyə çalışırıq. Yaxud tanınmış, hörmətli-izzətli adam namizəd olursa, o yerə iddialı olmuruq, namizəd irəli sürmürük. Bu da fərdlərdir, 3-5 nəfər ola bilər. Ancaq istənilən halda 125 dairədən namizədlərimizi hazırlayırıq.

***- Parlamentdə qeyri-rəsmi yaş senzinin tətbiq olunacağı da iddialar arasındadır. Gözləniləndirmi?***

- Belə bir şey yoxdur. İnsan yaşlaşanda ağlı qaçmır ki... Əksinə, insan yaşlaşdıqca müdrikləşir, daha çox təcrübə toplayır. Mən NATO Parlament Assambleyasının üzvüyəm, orda görüşürük, Britaniyadan, Avropanın digər ölkələrindən olan insanların heç biri gənc deyil, kifayət qədər təcrübəli siyasətçilərdir. O baxımdan insanın təcrübəsinin olması əsasdır. Adamın yaşlanması o demək deyil ki, tam sıradan çıxıb və s.

***- Ölkə prezidentinin ictimai nəzarətlə bağlı dedikləri hətta başlanacaq islahatların anonsu kimi də dəyərləndirildi. Sizin bu barədə şərhiniz varmı?***

- Həmişə deyilib ki, bütün yaranan hər bir şey ictimaiyyət üçün, cəmiyyət üçündür. Bu gün ictimaiyyət hər hansı şəxsin işi ilə bağlı deyil, dövlət təhlükəsizliyi, ölkənin müdafiəsi ilə bağlı bütün məsələlərdə aktiv iştirak etməlidir. Ona görə də ictimai nəzarət olmalıdır, var və olacaq.

***- Diplomatlarla bağlı qalmaqallı situasiyanın arxasında nələr var, bilmək olarmı?***

- Bu, fərdi məsələdir. Söhbət ondan gedir ki, bu gün bütün dünya Azərbaycan haqqında ən yaxşı fikirləri söylədiyi bir zamanda bizim Avropa Şurasında, indi də İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının rəhbərinin Azərbaycan haqqında fikirlər söyləyib. Xarici İşlər Nazirliyi gərək öz strukturunda islahatlar aparsın. Yunanıstanda hər bir səfir ildə bir dəfə ölkəyə qayıtmalı, müəyyən dövr ərzində orda ailəsi ilə birgə yaşamalıdır, regionlara çıxmalıdır, sonra gedib ölkəni təmsil edə bilər. Bu adam 20 ildir rahat şəraitdə oturub orda. Azərbaycanda hansı proseslər baş verir, nələr yaradılır, nələr qurulur, xəbəri yoxdur. Azərbaycanın bütün bu fəaliyyətini başa düşməyən insanlar var, biri də o Arif Məmmədovdur. Başa düşürəm, onun daşıdığı rütbə o ranqa uyğun deyil. İkinci bir tərəfdən, Avropa Birliyində, yaxud Avropa Şurasında təmsil olunan vaxt Azərbaycana qarşı qəbul olunan qərarların fundamentində elə bu özü dayanıb.

***- Eyni vaxtda Ukraynadakı səfirimiz də geri çağırıldı, həmçinin digər adlar çəkilir. Diplomatik korpusda nə baş verir?***

- Digərləri haqqında nəsə deyə bilmərəm, bu, prezidentin səlahiyyətində olan məsələdir. Sadəcə olaraq, bu adam *(Arif Məmmədov-E.P.)* yazır ki, mən 3 gün Azərbaycanda yaşaya bilmədim, qocaldım, Azərbaycan yeməklərini yeyə bilmirəm, istirahət mərkəzlərində oluram, dadlı yeməklər yeyirəm. Yeni diplomata yaraşmayan, diplomata uyğun olmayan fikirlərdir. Əgər 20 illik diplomat stajı varsa və bu düşüncə tərzi ilə danışırsa, ona Azərbaycanla bağlı adam demək olmaz.

***- Ağır ittiham səsləndirmisiniz, erməni olması haqda iddianızı nəzərdə tuturam...***

- Normal azərbaycanlı belə ifadə işlədə bilməz. 20 il Azərbaycandan normal əmək haqqı almısan, Azərbaycanın hesabına yaşamısan, mənzil-məişət şəraitin Azərbaycanın pulu hesabına ödənilib, uşaqların təhsil haqqı, özünün bütün səfərlərin Azərbaycan pulu, əmək haqqın vətəndaşlarımızın verdiyi vergilər hesabına ödənilib. Biz səni ora göndərmişik ki, Azərbaycanın maraqlarını təmsil elə, qarnını otarmağa, qarnını doldurmağa getməmisən. Qaçqınlar, Azərbaycanın problemləri, maraqları haqqında danışmalısan. Sən Azərbaycanın nümayəndəsisən, danışmalısan. Qarından danışmaq lazım deyil. Bunun düşüncə tərzi, dostlarına yazdığı məktublar ancaq qarnı ilə ölçülür. Neçə il işləməsinə baxmayaraq, görünür ki, ya o, diplomat deyil, ya da başqa millətin nümayəndəsidir. Burda başqa variant yoxdur.

***- Necə bilirsiniz, dediyiniz meyarlara uyğun gəlməyən digər diplomatlar da varmı?***

- Təbii ki var. Amma xüsusi rentgen aparatı yoxdur ki, bunların hamısını yoxlayasan ki, qarnında, qanında, zatında, kökündə nələr var. Hər bir bu cür yanaşma tərzi olan və üzə çıxan insanlar da cəzasını almalıdır.

***- Avropa Oyunları ərəfəsində iqtidarlı-müxalifətli hansı addımların atılmasını təklif edirsiniz?***

- Bu məsələdə hamı həmrəy olmalıdır. Bu, Azərbaycan dövlətinin təbliğidir, burda ölkəmiz haqqında bəhs olunacaq. Görürsən adi bir səfir öz qarnının davasını edir ki, burda yaxşı yemək yemədim, orda yedim. Bu gün bizim mədəniyyətimizə, incəsənətimizə, hətta mətbəximizə, şairlərimizə qonşu ölkələr iddia edir. Odur ki, belə yarışlar Azərbaycanın təbliği üçün çox faydalıdır. Biz başqa məsələlərdə iqtidarlı-müxalifətli bir-birimizlə davamızı aparacağıq, aydın məsələdir. Amma bu məsələ - Avropa Oyunları məsələsi - ümummilli məsələdir, burda hamı bir yerdə olmalıdır.

***- Yeri gəlmişkən, əsas yollarda sarı zolağın tələblərinə cavab verirsiniz?***

- Hamı cavab verir. Mən çox sevinirəm ki, bu gün bütün Azərbaycan vətəndaşları sarı zolağın tələblərinə tam şəkildə riayət edir.

***- Cərimələnməyibsiniz ki?***

- Yox...

❑ Elşad PAŞASOY



### YAP-çı deputat: "Mən çox sevinirəm ki, bu gün bütün Azərbaycan vətəndaşları sarı zolağın tələblərinə tam şəkildə riayət edir"

# "Dəfələrlə qiyamın yatırılması üçün səlahiyyət istədim"

## İsgəndər Həmidov: "Elçibəy qan tökmək istəmədi, nəticə də bu oldu..."

**Azərbaycanın taleyini dəyişən 4 iyun qiyamından 22 il keçdi. O dövrün siyasi həyatında iştirak etmiş adamlar qeyd edirlər ki, əgər qiyam baş verməsəydi, bugünkü Azərbaycanda tamamilə fərqli mənzərə görmək olardı: iqtisadi inkişaf, demokratik islahatlar, xalqın maddi rifahının yaxşılaşması, ölkənin dünyada müsbət imicinin formalaşması, Qarabağın azad olunması...**



Ancaq 22 il öncə Gəncədə Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma Xalq Cəbhəsi hakimiyyətinin ömrünə son qoydu. Milli Qvardiyanın ondan artıq əsgərinin qətlə yetirilməsi və nəhayət, hakimiyyətin devrilməsi ilə nəticələnən hərbi qiyamın yaratdığı suallar bu gün də aktualdır.

Bir çox insanlar da hesab edir ki, İsgəndər Həmidovun 1993-cü ilin aprelində daxili işlər naziri vəzifəsindən getməsi Azərbaycanda demokratik dövlət quruculuğunu istəməyən qüvvələrin əl-qolunu açıb, Surət Hüseynovda qarşısına artıq heç kimin çıxa bilməyəcəyi barədə əminlik yaradıb. İsgəndər Həmidov daxili işlər naziri vəzifəsində qalsaydı böyük ehtimalla həmin mənfur qüvvələr çirkin niyyətlərini həyata keçirməyə risk etməyəcəkdilər. Cəhd edəcəkləri halda isə İsgəndər Həmidovun ağır zərbəsini alacaqdılar.

**İ.Həmidov "siz nazir postundan istefa verməsəydiniz, qiyam da olmazdı iddiaları var" sualına belə cavab verdi:** "Bunu mənə deyənlər var. Bəzən dostlarım da bu fikri səsləndirirlər ki, nazir vəzifəsindən istefa verməsəydim, qiyamçıların da əl-qolu bu qədər açılmazdı. Ancaq mən bu fikirlərlə razılaşmıram. Əvvəla, elə bir vəziyyət yaranmışdı ki, nazir postunda qala bilməzdim və istefa verdim. İkincisi, qiyamın qarşısını dövlət alır. Bu hadisələrin istefaya getməyimə aidiyyəti yoxdur".

**İsgəndər Həmidov hesab edir ki, Elçibəy iqtidarı qan tökməyə razı olmadı:** "Qiyamın qarşısını dövlət alır. Rəhmətlik prezident Elçibəy isə qan tökmək istəmədi. Nəticəsi də bu oldu.

Mən qiyamın yatırılmasının mümkün olmadığı barədə deyilənlərlə tamamilə razı deyiləm. Hakimiyyəti qorumaq mümkün idi. Elçibəyi qorumaq üçün ölməyə hazır minlərlə adam var idi. Qiyamı yatırmaq üçün yetərli güc və qüvvə var idi. Tam məsuliyyətlə deyirəm ki, 4 iyun qiyamını yatırmağa gücümüz var idi. Dəfələrlə bu qiyamın yatırılması üçün səlahiyyət istədim, ancaq mənə təklif olunan qiyam yatırma üslubu başqa idi.

Mən hesab edirəm ki, 4 iyun qiyamı Azərbaycanı ən azı 30 il geriyə atdı. Bundan sonra bəlkə 30 il lazımdır ki, onu da istəsələr, irəliyə gedə bilək. 4 iyun qiyamı olmasaydı, Azərbaycan proqressiv bir ölkəyə çevrilə bilərdi. Xalqın yaşayışı yaxşı olacaqdı, iqtisadi inkişaf sürətlə gedəcəkdi, demokratik islahatlar həyata keçiriləcəkdi. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdi".

❑ **Etibar SEYİDAĞA**

# Əfv ümidləri indi də Qurtuluş gününə qaldı



**Çingiz Qənizadə:** "Prezidentin belə bir sərəncam verəcəyini gözləyirəm"



**Novella Cəfəroğlu:** "Yaxınlarda mütləq olacaq"

**Məlum olduğu kimi, may ayında gözlənilən əfv reallaşmadı. Artıq ümidlər Avropa Oyunları və 15 iyun Qurtuluş gününə qalıb. Hüquq müdafiəçiləri bu ərəfədə əfv sərəncamının imzalanacağı qənaətindədirlər. Qarşıdan bütün Avropanın diqqətində olacaq Avropa Oyunlarının gəldiyini nəzərə alsaq, müəyyən qədər ümidlər var.**

İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi Səadət Bənəniyarlı interpress.az-a açıqlamasında Avropa Oyunlarının davam edəcəyi 15 iyunda əfv sərəncamının mümkünlüyünü istisna etməyib: "Biz əfv gözləyirik. Əslində biz hər gün bunu gözləyirik. Fəaliyyətimiz də ancaq buna istiqamətlənib. Hər bir məhbusun azad edilməsi ailəsi üçün böyük sevincdir".

**Hüquq müdafiəçisi Çingiz Qənizadə əfv ola biləcəyi ehtimallarından danışdı:** "Bu cənab prezidentin müstəsna hüququdur. Əfvi verə də bilər, verməyə də. Biz sadəcə arzulayırıq. Söz-söhbətlər gedir ki, qarşıdan gələn Avropa Oyunları və 15 iyun Qurtuluş günü ilə bağlı əfv verilə bilər. Hüquq müdafiəçisi kimi bunu çox istəyərəm. Həmişə olduğu kimi, yenə də cənab prezidentin humanizm nöqteyi-nəzərdən belə bir sərəncam verəcəyini gözləyirəm. Nə vaxt verilməsindən asılı olmayaraq, hüquq müdafiəçiləri olaraq, daim belə addımları müsbət qiymətləndiririk. Müzakirələrimiz davam edir. İşçi Qrupunda işləri daha çox komissiya üzvləri həyata keçirir. Hətta komissiya üzvləri belə deyə bilməz ki, əfv olacaq. Bu hüquq prezidentindir. İstədiyi vaxt həyata keçirə bilər. Müəyyən məhbuslar var ki, İşçi Qrupunda müzakirə olunur. Cənab prezident müraciətlərə həssas yanaşır. Hazırda bir sıra müraciətlər var. İnanıram ki, bəhrəsi olacaq. Millət vəkili olduğumdan çoxlu sayda müraciətlər var. Əsaslı olanları, yəni xəstə, cəzasının yarısını çəkmiş məhbuslardan ibarət 10 nəfərlik siyahını Əfv Komissiyasına göndərirəm. Hər şey ola bilər. Ümidləri kəsmək olmaz. Arzulayırıq ki, əfv olsun".

**İşçi Qrupunun üzvü Novella Cəfəroğlu əfvə ümidlərinin daim olduğunu söylədi:** "Heç zaman ümidsiz olmamışıq. Amma nə vaxt olacağını bilmirik. Sözsüz ki, yaxınlarda mütləq olacaq. İşlərimizi çoxdan yekunlaşdırmışıq. Siyahılarımızı vermişik, aidiyyəti şəxslərlə görüşmüşük. İşçi Qrupu işlərini başa çatdırıb. Yenə də müntəzəm danışıqlarımız olacaq".

❑ **Cavanşir ABBASLI**

# "A.M.A.Y. Abdulla"nın məhkəməsi təxirə salındı

## Bakı İstintaq Təcridxanasından dustaqları məhkəməyə gətirilməsində çətinlik yaranıb

**İyunun 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə A.M.A.Y. ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilməli idi.**

Lakin təqsirləndirilən A.Abdullayev saxlanıldığı Bakı İstintaq Təcridxanasından gətirilmədiyindən proses qeyri-müəyyən vaxtadək təxirə salınıb. Ümumiyyətlə, Zabrat qəsəbəsində yerləşən Bakı İstintaq Təcridxanasından məhkəmələrə təqsirləndirilən şəxslərin gətirilməsində ləngimələr yaranıb. Bunun səbəbi kimi təqsirləndirilən şəxslərin məhkəmələrə gətirildiyi yolun Bakı Olimpiya stadionunun yaxınlığından keçməsi olduğu göstərilir.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədirlər. A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material



Abdulla Abdullayev

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib. İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürməklə həmin vəsaiti faktiki rəhbəri olduğu A.M.A.Y. MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 121 (6149) 5 iyun 2015



# Musiqisiz teatr

Zamin HACI
zaminhaci@gmail.com

"Arşınmalçı mal göstər,
Bir-bir yerə sal göstər.
Göstər-göstər hər nə var,
Qızlar bəzənmək istər".

**(Üzeyir Hacıbəyov, "Arşın mal alan")**

**Tarixən insanlar anlamadıqları şeyləri müqəddəsləşdirməyə, bütləşdirməyə meylli olmuşlar. Elementar şimşək çaxmasını götürün. Bunun göydəki allahların qəzəb qılıncı olmasını zənn eləməyimiz elə də uzaq tarix deyil.**

O səbəbdən, yapistlərin xalqın savadsız, kütbeyin böyüməsinə maraqlı olması təbii qarşılanmalıdır. Nə qədər ki, bizim dünyadan xəbərimiz yoxdur, iki kitab arası açmamışıq, nə özümüz oxuyuruq, nə də uşaqlarımızı öyrədirik - bu müddətdə onlar, həmin yapistlər bizim üçün müqəddəs Hindistan inəyi kimi varlıqlar olacaqlar. Bunu TQDK-nın son imtahan nəticələrindəki biabırçılıq haqda narahat olan bir-iki nəfər üçün yazdım. Onsuz qalanları - həmin imtahanlardan 0-200 bal toplayan böyük kütlə qəzet oxumur.

Belə kütlənin şeyxülislamı olub Avropa Oyunları günlərində Ramazan süfrəsini necə açmaq haqda fətva vermək də asandır. Mən Allahşükür müəllimin həyəcan dolu başqa bir açıqlamasını da oxudum. Hətta təsəvvür edin, Allahın adını çəkmişdi! Deyir, kim Ramazanda iftardan qabaq ölüsünə ehsan versə, ona Allah qənim olacaqdır. Həmçinin hökumət də qənim olacaqmış, çünki Allahşükür müəllim idarəyə tapşırıq veribdir, İqtisadiyyat Nazirliyi ət dükanlarında brüsselyoz axtardığı kimi, Qafqaz Müsəlmanları İdarəsi də iftardan qabaq ehsan məclisi aparan molla və axundları monitorinq edəcəkmiş. Sitat: "Necə ola bilər ki, sən hansısa bir imkanlı, yaxud vəzifəli adamın sözünü guya yerə salmayıb onun belə - iftardan əvvəl açdığı süfrədə iştirak edirsən, amma Allahı nəzərə almırsan? Axı Allah böyükdür! Belə hərəkət etmək isə Allaha qarşı çıxmaq deməkdir". Şeyxin Allah qəzəbindən axırıncı dəfə haçan danışdığı yadımızdan çıxmışdı, sağ olsun. Az qalmışdı sabitlik əldən getsin.

Sabitliyin əldən getdiyi idarələrdən biri də Xarici İşlər Nazirliyidir. Deyirlər onun hansısa bir diplomatı Avropada oturub Bakıdakı bina yanğını haqda sosial şəbəkədə tənqidi status yazıbmış. Binaya pis üzlük vurub insanları öldürənləri ümumi şəkildə, ad çəkmədən lənətləyibmiş. Amma bu elementar insani davranış belə yapistlərə dəhşətli təxribat kimi görünüb, həmin statusa bəyənmək işarəsi qoyan XİN işçilərini işdən çıxarıblar. Bəlkə tutub ayaqlarından asdılar. Diplomatın özünü isə deyəsən, çıxara bilmirlər, çünki adam beynəlxalq bir qurumun Avropa nümayəndəliyində işləyirmiş. Bu, əslində yapistlərin sosial şəbəkələrə, internetə total və diktatura nəzarətinin daha bir sübutudur. Ölkəmizdə insan azadlığının, söz azadlığının necə axmaq vəziyyətdə olmasını göstərir. Görəsən, Şimali Koreyada da Avropa Oyunları keçirilirmi? İkincini ora salsınlar. Nə çox beynəlxalq idman qurumlarında çirkin rüşvətxorlar, bunu da təşkil edə bilərlər. FİFA-nın biabırçı korrupsiya qalmaqallarının bənzəri çox tezliklə Beynəlxalq Olimpiya Komitəsində də üzə çıxacaq, buna əmin olun.

Söz idmana fırlanmışkan *(onsuz bu saat ayrı mövzu yoxdur, əgər Ramazan fətvası da Avropa Oyunları üstündə verilirsə, biz də trendə, dəbə uyğun yaşamalıyıq)*, bir absurd mənzərəyə də diqqət edək. Rusiya prezidenti Putinin adından bir bəyanat oxudum, yazmışdılar ki, Putin Bakıdakı oyunları translyasiya eləmək istəməyən televiziya kanallarını tənqid edib. Təbii, Rusiya telekanalizasiyalarından söhbət gedir. Onlar büdcə azlığını bəhanə edibmiş, əslində isə təbiidir, Rusiya kanallarının nəyinə lazımdır dördüncü dərəcəli idmançıların yarışı? Mənə sadəcə Putinin bundan narazı olması maraqlı gəldi. Görünür, yapistlər Putinə şikayət ediblər. Putinin son vaxtlar Azərbaycana yönələn isti mesajları, Qərbdə yapistlərə tənqidlərin artması fonunda rəsmi Bakının Moskva vaxtına daha çox köklənməsi xalqımıza yaxşı heç nə vəd eləmir. Ola bilsin müvəqqəti biz forposta çevrilək. Ya da Ermənistanla eyni vaxtda Rusiyanın marionet teatrında oyuncaq olaq. *("Guya haçan müstəqil idik" deyənləri eşitdim, narahat olmayın, rəyiniz nəzərə alınacaq - hamınızı XİN-də boşalan yerlərə işləməyə dəvət edirəm)*.

Özünü xatırladanlardan biri də baş nazirimiz, müqəddəs Artur Rasizadədir. Artur müəllim Günəş kimidir, onda vaxtaşırı protuberans tullantıları yaranır, maqnit qasırğası olur, görürsən bir ayda bir neçə qərar imzalayır. Son qərarı Sumqayıt Dövlət Musiqili Dram Teatrı haqdadır. Teatrın adından "musiqili" sözünü ləğv etmişdir. Bəs indi teatrda aktyorlar oxumayacaqmı? Niyə oxumayacaqlar? Bəyəm onlar ölkəmizdəki inkişaf, müasir fəvvarə və yol-ötürücü sistemləri haqda çalıb-oynamaq, nəğmə qoşmaq istəmirmi?

Allah sizə qənim olacaq, dayanın.



# Putinin ən yaxın hədəfi: Bakı və Ankara...

## Rusiya iki qardaş ölkəni Avrasiya Birliyinə qoşmaq üçün səylərini intensivləşdirib; Putinin qəyyum etdiyi şəxs: "5 ilə Bakı və Ankara qurumun üzvü olacaq"; Rusiya prezidenti qısa zamanda Türkiyəyə də səfər edə bilər...

**Rusiya prezidenti Vladimir Putin və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşıdakı Bakı səfərləri siyasi təhlilçilərə əlavə ciddi mövzu verib. Bir çox təhlilçilər regionun iki böyük dövlətinin liderinin Azərbaycanda eyni gündə, həm də prezident İlham Əliyevlə bir araya gəlməsi mümkünlüyünün və qarşıdakı görüşlərin uzaq gedən sonuclarını hesablamağa çalışırlar.**

Söhbət təbii ki, Azərbaycan-Rusiya, Rusiya-Türkiyə münasibətlərindəki əsas əngəlləri aradan qaldırmaqdan gedir. Rəsmi Bakı üçün bu xüsusda həll edilməmiş Dağlıq Qarabağ problemi öndə gəlir. Rusiya üçün isə öz növbəsində Azərbaycan Avrasiya İqtisadi Birliyinə potensial üzv ölkə olaraq çox mühüm, hətta həlledici əhəmiyyət daşıyır. Həmçinin də Ankara-Moskva münasibətlərinin son vaxtlar bəlli səbəblərdən rəvan getmədiyi məlumdur.

Azərbaycan şübhəsiz ki, Qarabağ ixtilafının həllində real irəliləyiş olmayınca və ölkəmizin ərazi bütövlüyünə təminat verilməyincə, Kremlin Avrasiya layihələrini yaxına buraxmayacaq. Bunu Kremldə də yaxşı bilirlər. Hərçənd bəzi rusiyalı analitiklər bir qədər fərqli düşünürlər.

Məsələn, tanınmış rusiyalı politoloq, Siyasi Təhqiqatlar İnstitutunun direktoru, sabiq deputat və Putinin qəyyum etdiyi şəxs Sergey Markova görə, Rusiya çətin ki, yalnız hansısa ölkənin Avrasiya İqtisadi Birliyinə qoşulması naminə Dağlıq Qarabağ məsələsi ilə məşğul olsun.

**Sitat:** "Rusiya Azərbaycan və erməni xalqlarına məsələdə tədrici kompromis əldə olunması üçün kömək edir. Eyni zamanda situasiyanın geniş miqyaslı hərbi əməliyyatlar fazasına keçməməsi üçün çalışır. Bu köməyi Rusiya həm də öz maraqlarından çıxış edərək göstərir ki, sərhədində konflikt olmasın. Biz Azərbaycan və erməni xalqlarına qardaş xalqlar kimi baxırıq və dərin təəssüf hissi keçiririk ki, Qarabağ görə Azərbaycan və Ermənistan arasında münaqişə yaranıb. Dağlıq Qarabağ məsələsinin həlinin öz məntiqi var və heç bir halda o, Avrasiya İqtisadi Birliyi ilə əlaqəli deyil".

**Politoloqa görə, Azərbaycanla müqayisədə Türkiyənin Avropa Birliyinə yaxınlaşmasını daha asan təsəvvür eləmək olar:** "Ən real variant Azərbaycan və Türkiyənin Avrasiya İqtisadi Birliyinə birgə üzv olmasıdır. Fikrimcə, təxminən yaxın 5 il ərzində bu iki dövlət Avrasiya Birliyinin üzvü olacaq. Şübhə yox ki, burada Ukrayna böhranından, dəhşətli müharibənin bitməməsindən dolayı da böyük əlaqə mövcuddur. Nə qədər ki, Qərb ölkələri ilə Rusiyanın konflikti davam edir, aydındır ki, bütün ölkələr az-çox ehtiyatlı olmağı üstün tutacaqlar".

**Ekspert bu arada bəzi "tərəfdaş ölkələrin" Avropa Birliyi ilə "qırmızı xətti" keçmədən yaxınlaşmaq istəyinə Moskvanın anlaşıqlı yanaşdığını bildirib:** "Bir neçə ölkənin AB ilə əməkdaşlıq çərçivəsində sərbəst və ya sadələşdirilmiş viza rejiminə nail olmaq istəyi Moskvadan ötrü normaldır".

**Politoloq yekunda Vladimir Putinin Bakıya qarşıdakı səfəri ilə bağlı gözləntilərə də toxunub. Onun fikrincə, Putinin 24 aprel İrəvan səfəri Azərbaycan və Türkiyədə olduqca mənfi qarşılandığından, belə bir səfərə zərurət artıb:** "Çünki Vladimir Putin üçün Azərbaycana dəstək, Azərbaycanla münasibətlər çox mühümdür. Mən yaxın zamanlarda Rusiya prezidentinin Türkiyəyə gedəcəyini də istisna eləmirəm. Amma bundan ötrü rəsmi Ankara gərək heç olmasa, Moskvaya ünvanlı 24 apreldən sonrakı ifrat neqativ ritorikadan imtina eləsin".

*****

Əlbəttə ki, Putinin qəyyum etdiyi şəxsin guya Qarabağ məsələsinə görə Kremlin təəssüf keçirdiyini barədə sözlərini səmimi saymaq çətindir. Ən azı ona görə ki, Dağlıq Qarabağ ixtilafını kimin yaratdığını, Ermənistanın işğalının arxasında hansı dövlətin dayandığını, nəhayət, konfliktin nizamlanmasına illərdir kimin mane olduğunu hamı bilir.

Ancaq Markovun Azərbaycan və Türkiyənin 5 ilə Avrasiya Birliyinə qoşulacağı ilə bağlı fikirlərini ciddiyə almaq lazım gəlir. Çünki Kremlin "danışan dilləri"ndən biri kimi, o, faktiki, bununla Rusiya rəhbərliyindəki ovqatı ifadə edib və Moskvanın Azərbaycan və Türkiyəyə yönəlik ən yaxın hədəfinin anonsunu verib.

Rusiyanın iki qardaş ölkə ilə bağlı ən yaxın planının detallarına yəqin ki, Putin və Ərdoğanın Bakıya bu ay edəcəkləri səfərlərdən sonra əhəmiyyətli şəkildə aydınlıq gələcək. Ona da qəti şübhə yox ki, qardaş ölkə də Rusiya ilə əlaqələrin bundan sonrakı inkişafına sırf öz gəlir-çıxarını nəzərə alaraq razılıq verəcək.

❑ **Siyasət şöbəsi**

# Rəsmi Bakı avropalı məmurları Azərbaycana qarşı qərəzdə suçladı

## XİN: "Bu şəxslərin Avropa Oyunlarına qarşı məkrli cəhdləri beynəlxalq ictimaiyyətin iradəsinə qarşı fəaliyyətdir"

**Avropa Şurasının insan haqları komissarı Nils Muzinieks, BMT-nin məruzəçisi Mişel Forst və ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunja Mijatoviç təmsil etdikləri təşkilatların statusundan sui-istifadə edərək, Azərbaycana qarşı Avropa Oyunları ərəfəsində bəzi dairələr tərəfindən sifarişli əsasda aparılan qarayaxma kampaniyasının tərkib elementi kimi fəaliyyyət göstərirlər.**




Bunu Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Nils Muzinieks, Mişel Forst və Dunja Mijatoviçin "Opendemocracy" internet portalında dərc edilmiş məqaləsini şərh edərkən deyib.

**H.Hacıyev bildirib ki, bu əməlləri ilə sözügedən şəxslər təmsil etdikləri təşkilatların məqsəd və məramlarına deyil, yalnız məhdud siyasi dairələrin maraqlarına xidmət etdiklərini bir daha sübut edirlər:** "İdman və mahiyyət etibarilə, Bakı Birinci Avropa Oyunları Avropa qitəsində bu gün aktual olan mədəniyyətlər və dinlərarası dialoqa, dostluğa, tərəfdaşlığa və sülhə xidmət edir. Bu xüsusda, BMT Baş Assambleyasının 69-cu sessiyasında 31 oktyabr 2014-cü ildə qəbul edilmiş A/RES/69/6 saylı və "İdman təhsil, səhiyyə, inkişaf və sülhü təşviq edən vasitə kimi" adlı qətnamədə Avropa Oyunlarının kəsb etdiyi əhəmiyyət xüsusi olaraq vurğulandığı halda, bu şəxslərin Avropa Oyunlarına qarşı məkrli cəhdləri beynəlxalq ictimaiyyətin iradəsinə qarşı fəaliyyətdir".

H.Hacıyev təəssüflə bildirib ki, insan hüquqlarının müdafiəsindən danışıldığı halda, bu şəxslər tərəfindən Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində İnsan hüquqlarına dair Bəyannamədə öz əksini tapmış ən ümdə hüquqlarından məhrum olmuş bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqları haqqında bir söz deməyə cəsarət tapılmır.

# Putinin Bakı səfəri nə vəd edir?

## Qabil Hüseynli: "Onun Azərbaycana gəlişi bir sıra məsələlərə vəsilə ola bilər"

**Rusiya prezidenti Vladimir Putinin Avropa Oyunlarının açılışı mərasimində iştirak etmək üçün Bakıya gələcəyi hələ rəsmi təsdiqini tapmayıb. Lakin böyük ehtimalla, Rusiya rəhbəri mötəbər idman tədbirinin açılışı mərasiminə qatılacaq. Rusiya hakimiyyətinin rəsmi Bakı ilə münasibətlərində son vaxtlar müşahidə olunan yaxınlaşma Putinin gələcəyini söyləməyə əsas verir.**

Rusiya prezidentinin Bakıya səfəri reallaşacağı halda onun Azərbaycan iqtidarı ilə görüşündə bir sıra mühüm məsələlərin də müzakirə ediləcəyi şübhəsizdir. Nəzərə alsaq ki, Avropa Oyunlarından sonra ölkəmizi parlament seçkiləri gözləyir. 2013-cü ilin parlament seçkilərinə bir neçə ay qalmış Putinin Azərbaycana səfər etməsi və proseslərin hakimiyyətin xeyrinə sürətlə dəyişdiyini xatırlasaq, builki parlament seçkiləri öncəsi də onun gəlişinin hakimiyyət üçün hansı avantajlar vəd etdiyi məsələsi ortaya çıxır.

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Putinin hər dəfə seçkilərə az qaldığı bir vaxtda Bakıya gəlişi hakimiyyətin mövqelərinin güclənməsinə təkan verən amillərdən biridir. Fövqəldövlət olmağa can atan və regionda çox təsir gücünə malik olan bir dövlətin başçısının Bakıya Avropa Oyunlarının açılışına gəlməsi Azərbaycan hakimiyyətinin uğurları sırasına yazıla bilər. Seçkilər öncəsi ictimai rəy baxımından da bunun iqtidarın xeyrinə işləyəcəyini keçmiş təcrübə göstərir: "Rusiya prezidentinin gəlişi rəsmi Bakıya dəstək jesti kimi qəbul olunacaq".

**Politoloqun fikrincə, eyni zamanda Putinin gəlişi bir sıra digər məsələlərə vəsilə ola bilər. Məsələn, Putin Bakıya gəlməklə Türkiyə prezidenti Ərdoğanla görüşmək imkanı qazanır. Son zamanlar ciddi surətdə soyumuş Türkiyə-Rusiya münasibətləri ətrafında yenidən sövdələşmələrin bünövrəsi qoyula bilər. Bu da Putin hakimiyyəti üçün böyük prinsipial rol oynaya bilər:** "Rusiya prezidenti ölkəsinə qarşı olan Avropa cəbhəsini parçalamağa cəhd edir, buna müəyyən məqamlarda nail olur və Türkiyə kimi böyük dövlətlə münasibətləri inkişaf etdirmək, böyük qaz layihəsini imzalamaq, ticarət dövriyyəsini artırmaq, Türkiyəni sanksiyalara qoşulmağa imkan verməmək Rusiyanın uğurları sırasına aid edilə bilər. Avropa ölkələrindən də Azərbaycana müəyyən dövlət xadimlərinin gəlişi gözlənilir. Ola bilsin ki, Almaniya kanslerı Anjela Merkel Bakıya gəlib mərasimdə və bəzi görüşlərdə iştirak etsin. Yəqin ki, Merkelin Bakıya gəlişi Putin üçün çox lazımdır. Çünki o bilir ki, Almaniya Avropa Birliyinin lokomotividir və bu lokomtiv dövlətlə danışıqlar aparılması az qala bütün Avropa ilə danışıqlar aparılmasına bərabərdir. Amma onun gəlişi xüsusilə Azərbaycanın özü üçün vacib olan məsələlərin müzakirəsi ilə maraqlı olacaq. Həm Dağlıq Qarabağ probleminin həll variantı və bunun modeli Putinin səfəri zamanı dəqiqləşə bilər, həm də Azərbaycanın Avrasiya İttifaqına, Gömrük İttifaqına qoşulması məsələsində mövqelərə bir aydınlıq gətirilə bilər. Bax, bu nöqteyi-nəzərdən bu səfərin Azərbaycan üçün də, Rusiya üçün də vacib olduğunu deyə bilərik. ABŞ Rusiya ətrafında həlqəni daraltmağa çalışır. Bunu Rusiya çox gözəl başa düşür və öz ətrafına tərəfdarlarını toplamağa cəhd edir. Rusiya bilir ki, Azərbaycanın iqtisadi və geosiyasi potensialı, son zamanlar beynəlxalq münasibətlərdə oynadığı rol, onun Avrasiya İttifaqına daxil olması bu ittifaqın nüfuzunu artıra bilər".


Qabil Hüseynli

**Q.Hüseynli vurğuladı ki, qeyd olunan məsələlərin həlli üçün Rusiya müəyyən məsələlərdə ciddi güzəştlərə, kompromislərə hazır olmalıdır, özünün forpostu hesab etdiyi Ermənistanı da güzəştlərə hazırlamalıdır:** "Ən azından Ermənistanın işğal etdiyi 7 rayonun azad edilməsi haqqında qərar verilsə, o zaman Azərbaycanın Avrasiya İttifaqı və Gömrük İttifaqına daxil olacağı haqqında birmənalı fikir söyləmək mümkündür. Bu işin başa gələcəyi Rusiyanın istəyinə bağlıdır. Rusiya Ermənistanın yox, özünün çıxarları üçün nəticələri hesablamağı bacarmalıdır. İndiki şəraitdə Azərbaycanla kompromisə getmək şansını Rusiya əldən versə, Rusiya ciddi itkiyə məruz qala bilər".

❑ **Etibar SEYİDAĞA**



# Putin Roma Papası ilə görüşəcək

**İyunun 10-da Roma Papası Fransisk Rusiya prezidenti Vladimir Putini Vatikanda qəbul edəcək.**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Vatikanın mətbuat xidməti başçısının müavini Çiro Benedettini bildirib.

Qeyd edək ki, İtaliyada "EKSPO" sərgisində Rusiya pavilyonu da fəaliyyət göstərir. Həmin pavilyonu V.Putinin də ziyarət edəcəyi haqda məlumat yayılmışdı.

# Gürcü qadın Ukraynanın daxili işlər naziri ola bilər


Eka Zquladze

**"Daxili İşlər Nazirliyində islahatlarla bağlı qanunlar qəbul edilməyə başlanıb. Həmin qanunlar güc strukturlarını siyasi qurumlardan ayırır. Bələdiyyə asayişçiləri və yeni polis sistemi yaranır. Mən yeni polis sisteminin başında Eka Zquladze kimi şəxsi görmək istəyirəm".**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Ukrayna prezidenti Pyotr Poroşenko bildirib.

Ukrayna prezidenti deyib ki, ölkəsinin polis sisteminə Ukraynanın daxili işlər nazirinin birinci müavini, Gürcüstan daxili işlər nazirinin keçmiş müavini Eka Zquladze kimi adam başçılıq etməlidir.

Xatırladaq ki, 2014-cü ilin dekabrında Ukrayna hökumətinin qərarı ilə Eka Zquladze daxili işlər nazirinin birinci müavini təyin edilib.

Yeri gəlmişkən, Ukraynanın indiki daxili işlər naziri əslən Bakı ermənilərindən olan Arsen Avakovdur.

# "Rusiya hakimiyyətində Azərbaycan müxalifətinə etimad yox dərəcəsindədir"

## Politoloq Rusiya iqtidarının Azərbaycanın siyasi qüvvələri ilə əməkdaşlıq etməməsinin səbəbindən danışdı

**Azərbaycanın ən böyük və qüdrətli qonşusu olan Rusiya ilə münasibətlərin hər zaman hamar olmadığı faktdır. O da dəqiqdir ki, artıq 25 ilə yaxındır müstəqil olmağımıza baxmayaraq, Azərbaycanda, eləcə də digər postsovet respublikalarında Rusiyanın böyük təsiri var. Həmçinin Rusiya hakimiyyətinin Azərbaycan dövləti və eləcə də postsovet respublikaları ilə yaxın əməkdaşlığı mövcuddur.**

Rusiya ilə Azərbaycan arasında demək olar ki, bütün sahələrdə əlaqələr, əməkdaşlıq münasibətləri yüksək səviyyədə olsa da, yalnız siyasi partiyalar sahəsində vəziyyət fərqlidir. Daha dəqiqi, Azərbaycan və Rusiya siyasi institutları arasında əlaqələr yox səviyyəsindədir. Təbii ki, dövlət aparatı, hakim siyasi partiyadan söhbət getmir. Azərbaycan və Rusiyanın siyasi partiyaları arasında, eləcə də Rusiya hakimiyyətinin Azərbaycandakı siyasi (müxalif) qüvvələri ilə əməkdaşlığı mövcud deyil.

Doğrudur, bəzi solyönlü partiyalar, kommunist partiyaları ilə Rusiya kommunistləri arasında münasibətlər mövcuddur. Ancaq ənənəvi, aktiv siyasi qüvvələr haqqında bunu demək mümkün deyil. Məsələn, Qərb ölkələrindən fərqli olaraq Rusiya nümayəndələri Azərbaycanda siyasi partiyalarla bir qayda olaraq təmas və ya görüşlər keçirmir. Hətta qəbullara belə dəvət olunmur. Baxmayaraq ki, Rusiya hökuməti Azərbaycanda rayon icra hakimiyyətindən tutmuş din xadimlərinə qədər müxtəlif kateqoriyadan olan insanlara mükafat, medal verir.

**Politoloq Qabil Hüseynli deyir ki, Azərbaycan müxalifəti ənənəvi olaraq qərbyönlü olduğundan Rusiya ilə münasibətlər qurulmayıb:** "Azərbaycanda müxalifət missiyanı yerinə yetirən partiyaların demək olar ki, hamısı sağ ideoloji platformaya qulluq edir. Bunların ideologiyasında isə demokratiya, insan haqları və qərbpərəstlik - vesterinizasiya, Qərbə meyllilik ön planda olub. Azərbaycan müxalifətinin qənaətincə, Qərb siyasi sistemi siyasi plüralizmi və insan azadlığını təmin edən sistemdir. Belə siyasi sistemlərdə hakimiyyətin mənbəyini xalq və onun iradəsi təşkil edir. Azərbaycanda Rusiyaya münasibətlər çeşidli səbəblərə söykənir. Məsələn, bunlardan birincisi, Azərbaycan müxalifətinin ideologiyasında Rusiya imperializmin və kolonializmin simvolu kimi təcəssüm edir. Onların qənaətincə, Azərbaycanın müstəqilliyi yolunda bütün tarix boyu başlıca maneə Rusiya və onun regionda yeritdiyi siyasət olub. Yəni bugünkü Rusiyanı ənənəvi Rusiyadan ayırmırlar. Onu da avtoritar, müstəmləkəyə meylli, kiçik xalqların suverenliyini saya salmayan bir ölkə kimi təqdim edirlər. Bu səbəbdən də öz ideologiyalarında və apardıqları siyasətdə Rusiyaya yer görmürlər".

**Ancaq eyni zamanda Rusiya və Azərbaycan müxalifəti arasında da əlaqələr inkişaf etməyib:** "Rusiyada da müxalifət var və onlar da bizim ənənəvi müxalifət kimi sağ meylli qüvvələrdir. Ancaq bizim müxalifətin onlarla da əlaqələri yoxdur. Bu əlaqələrin qurulmaması həm də Azərbaycan



müxalifətinin bacarıqsızlığından doğur. Məsələn, Qaydar demokratik ruhlu adam idi, ancaq bizim müxalifət onunla əlaqə qurmadı. Nemtsov və onun partiyası yenə Qərb dəyərlərinə sitayiş edən təşkilat idi. Amma onlarla da bizimkilərin əlaqələri yoxdur. Söhbət müqavilələrlə qurulmuş ciddi siyasi əməkdaşlıqdan gedir".

**Rusiya hakimiyyətinin bu əlaqələrə münasibətinə gəlincə, Q.Hüseynli deyir ki, bir sıra amillərə görə Kreml də Azərbaycanın ənənəvi müxalifəti ilə əməkdaşlığa can atmır:** "Rusiya hakimiyyətinin özü isə Azərbaycan müxalifətini millətçi qüvvələrin toplandığı yer hesab edir. Və guya həmin millətçi qüvvələr Rusiyanı velikorus şovinizmi formasında təsəvvür edirlər, hamını bu təhlükədən uzaq durmağa çağırırlar. Həqiqətən də Rusiya hakimiyyətində Azərbaycan müxalifətinə etimad yox dərəcəsindədir. Düzdür, Rüstəm İbrahimbəyov və "Milyarderlər İttifaqı" müəyyən qədər bu etimadsızlıq mühitini dağıtmağa çalışdı, amma bu, sona qədər alınmadı. Rusiyanın "beşinci kolonu" adətən kommunist və ya sosialist partiyaları, bəzən partiyalı olmayan, amma sosializmə simpatiya bəsləyən adamlardır. Onlarla ciddi şəkildə olmasa da, müəyyən səviyyədə əlaqələr qururlar. Bu əlaqələri də Züqanov və Jirinovski tipli şəxslərə tapşırırlar. Müasir Rusiyanın dövlət sistemində müxalif qüvvələrlə işləmək arzusu demək olar ki, yox dərəcəsindədir".

❑ **KƏNAN**

YENİ MÜSAVAT

N 121 (6149) 5 iyun 2015

# Mədəniyyət olimpiadası, milyonlarla ziyarətçi, Azərbaycan guşəsu...

## Milan Expo - 2015 sərgisində ölkəmizin yeri və pavilyonumuzun fəaliyyəti bir başqadır

**Dostlara, həmkarlara "Milana gedirəm" deyəndə təbii olaraq ortaya sual çıxdı: "Nəyə? Xeyirdirmi?" Cavabım belə olmuşdu: "Orda Expo-2015 sərgisi keçirilir, onu izləmək, yazmaq lazımdır". Müsahiblərimdən heç biri "Expo"nun nə olduğunu bilmirdi. Elə bu sətirlərin müəllifinin də təsəvvürləri yalnız səfərin təşkilatçılarının verdiyi məlumatlardan ibarət idi.**

**Ancaq şifahi sözlərlə Expo-2015 barədə insanları bilgiləndirmək, onlara bu tədbirin nə olduğunu anlatmaq, dolğun təsəvvür yaratmaq mümkün deyil. Bundan ötrü yüzlərlə şəkil, bir neçə saatlıq videosüjet, daha yaxşısı isə Expo-2015-də iştirakçı olmaq gərəkdir.**



### Olimpiadadan, mundialdan ötə...

Olimpiada deyəndə hamı söhbətin nədən getdiyini anlayır, yarışmaların miqyasını başa düşür, futbol mundialı deyəndə yenə hər kəs söhbətin 32 ölkənin yığma komandalarının 1 ay boyunca yüz minlərlə tamaşaçının gözü qarşısında yarışmalarından getdiyini bilir. "Eurovision" müsabiqəsinin də nə demək olduğu hər kəsə aydındır. Ancaq ölkə əhalisinin tam əksəriyyəti Expo-nun nə demək olduğunu, miqyasını bilmir.

Expo olimpiadalardan, mundiallardan, musiqi yarışmalarından populyar olmasa da, çox möhtəşəm, qat-qat miqyaslı bir yarışma növüdür. Onu cəsarətlə "Mədəniyyət olimpiadası" adlandırmaq mümkündür.

### Milyonlarla ziyarətçi - hər birindən 39 dollar...

Bu il Milanda keçirilən Expo-2015-də 145 ölkə iştirak edir, onu izləmək üçün milyonlarla tamaşaçı bilet alıb. Biletlərin qiyməti isə hətta firavan Avropa əhalisi üçün də az deyil - 39 dollar. Bir ailədən 3-4 nəfərin sərgini ziyarət etdiyini, öz ölkələrindən sırf Expo-2015-i izləmək üçün yola çıxan yüz minlərlə insanı nəzərə alsaq, görərik ki, heç bir dünya miqyaslı tədbirə bu qədər tamaşaçı qatılmır.

"Milan Expo 2015" ümumdünya sərgisi mayın 1-dən fəaliyyətə başlayıb. Sərgi "Planetimizi qidalandıraq, həyat üçün enerji qazanaq" *(Feeding the Planet, Energy for Life)* devizi altında keçirilir.

"Milan Expo 2015" sərgisində iştirak edən 145 ölkənin 54-ü milli pavilyonla təmsil olunur. Milli pavilyonlar ayrıca və unikal tikililərdən ibarətdir. Əsasən bir neçə mərtəbədən ibarət olurlar. Milli pavilyonların içində olduqca bahalıları (40, 50, 90 milyon avro), ortababları və ucuzları var. Azərbaycanın milli pavilyonu 15 milyona başa gəlib, unikal və parlaq dizayna malikdir.

"Milan Expo 2015" oktyabrın 31-dək, yəni tam altı ay boyunca davam edəcək. Ümumdünya Expo sərgiləri 5 ildən bir keçirilir.

Mayın 1-dək, yəni hələ sərgi açılmamışdan Expo-ya giriş üçün 11 milyondan çox bilet satılmışdı. Bu rəqəm hər gün dəyişir. Tətil aylarına düşən son beş ayda "Milan Expo-2015" sərgisini ziyarət edənlərin sayının rekord və fantastik həddə yüksələcəyini gözləmək olar.

### Azərbaycan pavilyonunun özəlliyi

Biz, Azərbaycandan gedən jurnalistlər qrupu "Milan Expo-2015" sərgisinə yollanarkən və milli pavilyonumuzun kandarında olarkən, güman etmirdik ki, yeni salınmış şəhərciyi xatırladan pavilyonlar küçəsində ölkəmizin pavilyonunun istər yeri, istərsə də tikilisinin dizaynı, funksionallığı bu qədər cəzbedici və parlaq ola bilər.

Orada bizə məlumat verildi ki, milli pavilyonumuzun təməli 2014-cü ilin iyulunda qoyulub. "Milan Expo" sərgisində Azərbaycan milli pavilyonunda işlər Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə təşkil olunub.

"Azərbaycan: Biomüxtəlifliyin xəzinəsi" adlandırılan 4 mərtəbəli, 1800 kvadratmetr ərazidə təşkil olunan milli pavilyonumuz ölkənin tarixi və mədəni irsini, zəngin ekoloji, enerji potensialını və unikal biomüxtəlifliyini əks etdirir.



Xüsusi konsepsiyada dizayn edilmiş milli pavilyonda Azərbaycanın təbliği ilə bağlı müxtəlif tədbirlər edilir.

### Musiqi sədaları altında müftə furşet

Biz orada olanda pavilyonumuzda çoxsaylı monitorlarda interaktiv şəkildə nümayiş etdirilən videosüjetlər, slaydlarla yanaşı, ardı-arası kəsilməyən tamaşaçı selinə milli mədəni sərvətlərimiz, mətbəximiz, musiqimiz barədə maraqlı məlumatlar da verilirdi. Üstəlik, pavilyonda canlı Azərbaycan musiqisi də ifa olunurdu. Muğam triosunun və virtuoz pianoçumuzun canlı ifası dünyanın dörd yanından gəlmiş tamaşaçıların alqışını qazandı.

Musiqiçilərimizin ifasının davam etdiyi əsnada tamaşaçılara təmənnasız olaraq məcməyilərdə qutab, dürmək, şirniyyat, spirtsiz içkilər verilirdi və bu, insanlarda ciddi məmnunluq yaradırdı.

Çünki başqa pavilyonlarda şəhərdən uzaq bir məkana gəlmiş on minlərlə insan heç də hər dəqiqə ödənişsiz yemək-içmək tapa bilmirdilər. Xüsusilə yaşlı insanlar Azərbaycan tərəfinin bu xəfif səxavətindən məmnun qalmışdılar. Bir az öncə Çexiya və Hollandiya pavilyonunda bir stəkan (250 qram) pivənin ən ucuzunun 5 avroya satıldığını görən insanlarda bu hissin yaranması təbii idi.



### Milli pavilyonlarını yolkənarı pavilyon kimi işlədənlər

Ümumiyyətlə, bir çox ölkələrin milli pavilyonunun dizaynına, iş üslubuna diqqət edəndə görürdün ki, onlar "pavilyon" məsələsinə sırf klassik anlamda yanaşıblar, sadəcə, yolqırağı kafe, pavilyonları xatırladan iaşə obyektləri açıblar. Məsələn, adlarını yuxarıda çəkdiyimiz ölkələrlə yanaşı, Belorusiya və Argentinanın pavilyonu da kafeteriya kimi fəaliyyət göstərirdi, öz milli yeməklərini tamaşaçılara baha qiymətlərlə təqdim edir, pul qazanırdılar.

Hindistan, Vyetnam kimi ölkələrin milli pavilyonu isə bijuteriya, suvenir mağazalarını xatırladırdı. Vyetnamlılar hər cür muncuq, milli ornamentlərlə bəzədilmiş xırda-xuruş şeylər satırdılar. Hindistanlılar da şıdırğı alver edirdilər.

Azərbayacan pavilyonununda nümayiş olunan maddi-mənəvi sərvətlərin sırf ölkənin təbliğatına hesablandığını qeyd edən jurnalist dostlarımızın biri başqa ölkələrə baxaraq burada ölkəmizə aid suvenirlərin, eləcə də milli xörəklərin satışından pul-para qazanmağın mümkün olduğunu bildirdi. Bəlkə də bu fikirlə razılaşmaq olardı. Amma hesablayaq, görək, milli təbliğat pavilyonunun iaşə pavilyonuna döndərilməsi nə qədər maddi vəsait qazandıra bilər və bu vəsait pavilyonun quraşdırılmasına və effektiv fəaliyyət göstərməsinə çəkilən ümumi xərcin neçə faizini qarşılaya bilər?

### Kim işə ciddi yanaşıb?

"Milan Expo 2015" sərgisinin Təşkilat Komitəsinin rəyinə görə, Azərbaycan "Milan Expo 2015" ümumdünya sərgisinin hazırlıq və qurulma prosesində ilkin mərhələdə iştirakçı ölkələr qarşısında qoyulan tələbləri, pavilyonun məzmun və tərtibatı ilə bağlı təqdimatları ən tez yerinə yetirən ölkələr sırasındadır.

Mayın 1-də sərginin açılışı tarixinə bəzi ölkələrin pavilyonları hazır olmasa da, Azərbaycan pavilyonu artıq bütün tikinti və tərtibaş işlərini yekunlaşdıraraq ziyarətçiləri qəbul etməyə başlayıb.

Mayın 1-dən etibarən Azərbaycan pavilyonunda 1 ay ərzində 900 mindən çox ziyarətçi olub. Arası kəsilmədən gələn və pavilyonumuza daxil olmaq üçün hövsələ ilə növbə gözləyən əcnəbi turistlərin sayı bu rəqəmin yaxın aylarda qat-qat artacağından xəbər verir.

Yeri gəlmişkən, pavilyonumuzu ziyarət edənlərin arasında iki əsa ilə hərəkət edən ahıl adamlar, hətta əlil arabasıyla 4-cü mərtəbəyə qalxan şəxs də vardı. Pavilyonun memarı bu cür şəxslərin rahatlığını da düşünüb, xüsusi olaraq əlillər üçün lift nəzərdə tutub.

Milli pavilyonun arxitektoru Rikardo Ciqolotti ilə qısa söhbətimiz zamanı dedi ki, pavilyonun ən unikal cəhəti ondan ibarətdir ki, sərgi başa çatandan sonra o, 6 ay müddətində söküləcək və Bakıya daşınıb yenidən qurulacaq.

İtalyan memar bu ilin oktyabr ayından etibarən sökülməsinə başlanacaq pavilyonun qısa müddətdə Bakıda, uyğun bilinən bir yerdə yenidən quraşdırılacağını və həm azərbaycanlıların, həm də Bakıya gələn turistlərin istifadəsinə veriləcəyini bildirdi.

Gördüyü parlaq işə rəğmən özünü təvazö çərçivəsində saxlamağı bacaran memar Ciqolotti bir sıra başqa pavilyonların da ələ dizayna malik olduğunu qeyd etdi, eyni zamanda vurğuladı ki, Azərbaycan pavilyonu onların sırasında yer alır.

Öz müşahidələrimizə əsasən deyə bilərik ki, bir sıra ölkələr pavilyonlarını etnokulturoloji elementlər əsasında, qədimliyə, ənənələrə vurğu salaraq başa gətiriblər. Gendən baxanda belə, həmin pavilyonların hansı ölkəyə məxsus olduğunu anlamaq olur. Azərbaycan pavilyonu isə zahiri görünüş etibarı ilə modern üslubda, avanqard stildə inşa edilib və bu, tamaşaçıların daha çox diqqətinə səbəb olur. Qeyd edək ki, Qazaxıstanın pavilyonu da müasir görünüşü ilə seçilir.

### Milli pavilyonun konsepsiyası

Azərbaycan pavilyonunun əsas özəlliyini 3 biosferdən ibarətdir. Pavilyonun 1-ci mərtəbəsi "Səslər simfoniyası" adlanır. Burada Azərbaycanın tarixi, mədəniyyəti, coğrafiyası barədə məlumatlar təqdim olunur.

**2-ci mərtəbədə** - "Rənglər simfoniyası"nda iqlim, lanşaft və bioloji müxtəliflik məlumatları çatdırılır.

**3-cü mərtəbə** "Dadlar simfoniyası" adlanır. Burada milli mətbəx və orqanik təbii qida məhsulları barədə məlumat və nümunələr təqdim edilir.

**Pavilyonun 4-cü** mərtəbəsində restoran fəaliyyət göstərir. Burada milli mətbəx təqdim olunur.

Bundan əlavə, pavilyonda monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya inciləri, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilir. Monitorlarda Azərbaycana dair 55 film, eləcə də müxtəlif video çarxlar nümayiş olunur.

Bu günədək Azərbaycanın müxtəlif regionlarında mövcud olan zəngin biomüxtəlifliyin, unikal landşafların, təbii ehtiyatların və fərqli bölgələrdə yerləşən tarixi abidələrin foto və video çəkilişləri aparılıb. Bu məqsədlə 2014-cü ilin aprel ayından 2015-ci ilin fevral ayınadək Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Yardımlı, Şəmkir, Şəki, Qəbələ, Şabran, Quba, Xızı, Siyəzən, Şirvan, Abşeron və digər rayonlara səfərlər edilib.

### İtalyanlar pavilyonumuzda necə vicdanla işləyir...

Biz pavilyonumuza daxil olarkən diqqət etdik ki, burada çalışanların əksəriyyəti yerli adamlardır, italyanlardır. Sonra məlumat aldıq ki, pavilyonun hazırlanması prosesinə Azərbaycan və İtalya komandasından birgə təxminən 300-ə yaxın şəxs cəlb olunub.

Azərbaycan pavilyonunun kontent meneceri də italyan xanım Çeleste Serciannodur. O da, digər italyan əməkdaşlar da öz işlərinin peşəkarlarıdır və tam ciddiyyətlə, növbəli iş prinsipi ilə çalışmaqda davam edirlər.

### Milandan Bakı, Bakıdan Milan görünəcək

"Milan Expo 2015" ümumdünya sərgisindəki Azərbaycan pavilyonunda iştirakçı ölkələr arasında yeniliyə imza atılaraq Bakı ilə birbaşa əlaqə yaradılır.

Belə ki, milli pavilyonun girişində güzgü formasında, insan ölçüsündə dalğavarı oturacaqla tamamlanmış monitor quraşdırılıb. Eynilə belə bir monitor Bakıda - Heydər Əliyev Mərkəzinin qarşısında da yerləşdirilib. Bu monitorların hər ikisi vəhdət təşkil edərək bir-biri ilə əlaqədədir. Pavilyonla tanış olan şəxslər monitorun qarşısında durmaqla Bakıda monitor quraşdırılan məkanı görəcək, buradakı insanlarla əlaqə saxlaya biləcəklər. Eynilə paytaxt sakinləri, şəhərimizin qonaqları da Azərbaycan pavilyonu və onun ziyarətçiləri ilə tanış olmaq imkanı qazanır. "Mirroring Baku" adlı bu layihə bir növ böyük miqyasda Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın yığcam şəkildə insanlar arasında, yəni sərginin minlərlə iştirakçısı ilə Bakı arasında əlaqəsinə şərait yaradır.

### Ermənistanın konfuzu

Qeyd edək ki, Expo-2015 sərgisində Ermənistan iştirak etmir. Qərb qonşumuz əvvəlcə həvəsliymiş, pavilyonla olmasa da, klaster formasında *(5-6 ölkənin bir pavilyonu)* iştirak etmək istəyirmiş. Ancaq ölkə rəhbərliyi Azərbaycanla qiyaslanacağından və müqayisə zamanı qat-qat zəif görünəcəyindən qorxaraq, sərgidə iştirakdan vaz keçib. Əlbəttə, burada maddi vəsait sıxıntısı da ola bilər. İl on iki ay başqa dövlətdən maddi yardımlar istəyən, uman və alan bir ölkə bu cür sərgilərdə iştiraka pul xərcləməyə həvəsli deyil.

### Expo-nun əhəmiyyəti

Ancaq bu, bir ölkənin özünü dünyaya tanıtması üçün çox əlverişli fürsətdir. ABŞ, Almaniya, İtaliya, İspaniya, Hollandiya, Fransa, İsrail, İran, Rusiya, İngiltərə, Braziliya, Argentina kimi ölkələrin bu cür təbliğata ehtiyacı olmaya bilər *(hərçənd onlar da sərgiyə yüksək peşəkarlıqla qatılıblar)*, ancaq Azərbaycanın tanınmağa, brend ölkə olmağa ehtiyacı var. Müasir dünyada yaxşı tərəfdən çox tanınmaq milli iqtisadiyyata böyük töhfədir. Bir sıra ölkələr milli iqtisadiyyatlarının mühüm bir hissəsini turizm sektorundan gələn gəlirlə formalaşdırırlar.

**Azərbaycan o zaman turizmdən böyük mənfəət əldə edəcək ki, ölkə daha çox tanınacaq, cəlbedici olacaq və dünyanın hər tərəfindən gələn turistlərin sevimli məkanına çevriləcək. Bundan ötrü lazımi infrastruktur yaratmaqla yanaşı, ələ düşən yarışmalardan (idman, musiqi, mədəniyyət sferasında) effektiv şəkildə istifadə etmək lazımdır.**

❑ **Xalid KAZIMLI**